# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən əziz qəzetdir

## Heydər Əliyev Fondu: 21 ilin uğurları



3

## Azərbaycan-Vyetnam əlaqələri: tarixdən gələcəyə uzanan dostluq körpüsü


2


SƏS
№ 079 (7247)
9 may 2025-ci il.
Qiyməti 60 qəpik


# Bakı nefti olmasaydı...

İkinci Dünya müharibəsində faşizm üzərində qələbədən 80 il ötür


14

## Sosial şəbəkələr xəbər verir, ya xəbərçilik edir?


15

## Parklarda etik davranışlara əməl etməmək DÜZGÜN DEYİL!


5

## Qarabağın tacı Şuşanın dünəni və bu günü



11

## Bank kartlarından daha 36 min manat oğurlandı...


16

## Diş və dişsizlik: implant çarədirmi?


13

# Azərbaycan-Vyetnam əlaqələri: tarixdən gələcəyə uzanan dostluq körpüsü

***Azərbaycan ilə Vyetnam arasında diplomatik və tarixi münasibətlər dərin köklərə söykənir və bu münasibətlər qarşılıqlı hörmət, dəstək və əməkdaşlıq ruhunda formalaşıb. Vyetnam xalqının azadlıq mübarizəsi və Azərbaycanın Vyetnama göstərdiyi mənəvi dəstək iki ölkə arasında qardaşlıq münasibətlərinin əsasını təşkil edib.***



Xüsusilə, XX əsrin ortalarında Vyetnamın Fransa kolonializminə qarşı mübarizəsində Azərbaycanın - o dövrdə SSRİ-nin tərkibində olmasına baxmayaraq - göstərdiyi mənəvi dəstək Vyetnam xalqı tərəfindən yüksək qiymətləndirilib. Fransa müstəmləkəçilərinin törətdiyi dəhşətlər bu gün də Vyetnam muzeylərində xüsusi ekspozisiyalarla əks etdirilir və xalqın yaddaşında dərin iz buraxıb. Bu tarixi yaddaş, xalqların azadlıq və müstəqillik uğrunda apardığı mübarizənin bir simvolu kimi yaşamaqdadır.

Vyetnam xalqının daha sonralar ABŞ işğalına qarşı apardığı şücaətli mübarizə də dünya xalqları üçün böyük bir nümunəyə çevrilmişdir. Bütün təzyiqlərə, bombardmanlara və mülki əhalinin qırğınlarına baxmayaraq, Vyetnam öz suverenliyini təmin etmişdir. Bu tarix Azərbaycan xalqının da öz ərazi bütövlüyü uğrunda apardığı Vətən müharibəsi ilə paralel olaraq, iki xalqın iradəsinin və mübarizə ruhunun oxşarlığını göstərir.

Tarixi əlaqələrin mühüm məqamlarından biri də 5000-dən artıq vyetnamlı tələbənin SSRİ dövründə Azərbaycanda təhsil almasıdır. Bu tələbələr bu gün Vyetnamın dövlət strukturlarında, iqtisadiyyatında və elmi sahələrində mühüm vəzifələrdə çalışaraq iki ölkə arasında körpü rolunu oynayırlar.

Əməkdaşlıq bu gün də aktiv şəkildə davam edir. Azərbaycan və Vyetnam BMT, Qoşulmama Hərəkatı, Asiya-Qərbi Avropa Məkanında Əməkdaşlıq (AQƏM) və digər beynəlxalq təşkilatlar çərçivəsində sıx əməkdaşlıq edir. Eyni zamanda, ASEAN ilə Azərbaycanın institusional əməkdaşlığının qurulması istiqamətində fikir mübadiləsi aparılıb. Bu, Azərbaycan üçün Asiya-Sakit Okean regionuna açılan yeni imkanlar deməkdir.



Vyetnamın Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lamın Azərbaycana səfəri ölkələrimiz arasındakı əlaqələr üçün yeni səhifənin açılması deməkdir. "Biz Qoşulmama Hərəkatı çərçivəsində birgə fəaliyyət göstəririk. Azərbaycan bu təsisatda dörd il sədrlik etmişdir və çox gözəl bir iz buraxmışdır. Bu gün Qoşulmama Hərəkatının daha da sanballı təsisat kimi fəaliyyəti hər iki ölkənin marağındadır."



Bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Vyetnamın Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam ilə mətbuata bəyanatında bildirib. "Bu gün, eyni zamanda, beynəlxalq hüququn aliliyi haqqında fikir mübadiləsi apardıq və burada da heç bir fikir ayrılığı yoxdur", - deyə dövlətimizin başçısı əlavə edib ki, bütün məsələlər ölkələrin ərazi bütövlüyü, suverenliyi, sərhədlərin toxunulmazlığı əsasında, beynəlxalq hüquq çərçivəsində öz həllini tapmalıdır, bütün mübahisəli məsələlər danışıqlar, sülh yolu ilə həll olunmalıdır.

"Ölkələrimiz (Vyetnam və Azərbaycan - red.) arasında əlaqələr dövlət rəhbərləri və xalqlarımız tərəfindən daim gücləndirilmişdir." Bu sözləri Vyetnamın Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibi To Lam Azərbaycan Prezidenti İlham Əliyev ilə mətbuata bəyanatında söyləyib.

"Biz siyasi, diplomatik, energetika, müdafiə, ticarət və digər sahələrdə yaxşı nəticələr əldə etmişik. Bu əsasla biz strateji tərəfdaşlığın qurulması haqqında Birgə Bəyanatı artıq qəbul etdik. Bu isə ölkələrimizin münasibətlərinin tarixində yeni dövr, yeni səhifə açır. Əminəm ki, biz yaxın zamanlarda ikitərəfli münasibətlərimizi dərinləşdirə və genişləndirə biləcəyik, inkişaf naminə üstün cəhətlərimizdən faydalanacağıq", - deyə Baş katib əlavə edib.

İki ölkə arasında siyasi dialoqun mühüm istiqamətlərindən biri də Yeni Azərbaycan Partiyası ilə Vyetnam Kommunist Partiyası arasında qurulmuş əlaqələrdir. Bu siyasi əməkdaşlıq qarşılıqlı anlaşmanın və ideoloji yaxınlığın bir təzahürüdür.

Vyetnam həmçinin Şimal-Cənub və Şərq-Qərb nəqliyyat dəhlizlərinə strateji maraq göstərir. Azərbaycan bu baxımdan həm Cənubi Qafqazda, həm də Avropa ilə Asiya arasında mühüm tranzit rolunu oynayır. İran və Hind okeanı vasitəsilə yük daşımalarının Azərbaycan üzərindən Avropaya daşınması, həmçinin Vyetnam-Çin-Qazaxıstan-Azərbaycan-Avropa xətti üzrə logistika imkanları, regional əməkdaşlığın inkişafı üçün geniş imkanlar yaradır.

Bundan əlavə, hərbi və təhlükəsizlik sahəsində əməkdaşlıq da gələcək üçün vəd verən istiqamətlərdən biridir. Müdafiə sahəsində təcrübə mübadiləsi və təlimlərin keçirilməsi kimi məsələlər gündəmdədir.

Sonda qeyd etmək lazımdır ki, Azərbaycan-Vyetnam münasibətləri təkcə keçmişin dostluq ənənələrinə deyil, həm də gələcəyin ortaq maraqlarına əsaslanır. Bu münasibətlər zamanla daha da möhkəmlənərək, hər iki ölkənin beynəlxalq aləmdəki mövqeyini gücləndirəcək və xalqlar arasında daha sıx əlaqələrin qurulmasına zəmin yaradacaqdır.

***Zümrüd Bayramova***

# Heydər Əliyev Fondu: 21 ilin uğurları

Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən Heydər Əliyev Fondunun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında özünü göstərir. Ümummilli Lider Heydər Əliyevin zəngin irsinin öyrənilməsi, Onun yaratdığı milli dövlətçilik ideyalarının yeni nəsillərə daim aşılamaq məqsədi ilə yaradılan Fondun genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurmasına gətirib çıxarıb. Xeyriyyəçilik və humanizm kimi dəyərlərdən yoğrulmuş fəaliyyət insanlığa, bəşəriyyətə xidmət etmək kimi ali bir dəyərə söykənir. İllərdir ki, yorulmaq bilmədən çalışan və böyük əhəmiyyət kəsb edən, müasir dünyamızın çağırışlarına cavab verən layihələri ilə milyonlarla insanın sevgisini qazanan Azərbaycanın Birinci Xanımı, Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın bu fəaliyyət özünün vurğuladığı kimi, sarsılmaz həqiqətlərə söykənir: "Əxlaq və mənəviyyat, insaniyyət və şəfqət, inam və məhəbbət, xeyirxahlıq və saf niyyətlər Yaradanın hər birimizə bəxş etdiyi ən gözəl keyfiyyətlərdir". Mehriban xanım Əliyeva valideynlərindən əxz etdiyi dəyərləri hər zaman üstün tutaraq, onların öyrətdikləri həqiqətə və mənəviyyata can atmağı özünün həyat məqsədinə çevirib: "Onlar öz varlığı ilə ləyaqət və şərəf hissinin hər şeydən üstün olduğunu aşıladılar. Öyrətdilər ki, alicənablıq və dürüstlük, mənəviyyat və şəfqət, xeyirxah əməllər, inam və məhəbbət - həqiqi xoşbəxtliyə və harmoniyaya aparan yoldur". Bu yol həqiqətə, insanlığa, mərhəmətə aparan yoldur.











## "BU GÜN HEYDƏR ƏLİYEV FONDU QARŞISINDA YENİ VƏZİFƏLƏR DAYANIR"

Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində Heydər Əliyev Fondunun fəaliyyətini yüksək qiymətləndirərək bildirmişdir ki, ən böyük xeyriyyəçi nəinki Azərbaycanda, Cənubi Qafqazda Heydər Əliyev Fondudur. Yarandığı zamandan bu günə qədər Fondun əsas məqsədinin, vəzifəsinin insanlara kömək göstərmək, Azərbaycan mədəniyyətini dünyada təbliğ etmək, təhsil, səhiyyə, mədəniyyət, incəsənət, elm sahələrinə töhfə verməkdən ibarət olduğunu diqqətə çatdırmışdır: "Azərbaycanın multikultural dövlət kimi, müasir dövlət kimi dünyada tanıdılmasında Heydər Əliyev Fondunun müstəsna xidmətləri vardır. Məhz Fondun fəaliyyəti nəticəsində Azərbaycan daha çox tanınır və məhz bu amil bizə İkinci Qarabağ müharibəsi dövründə kömək göstərdi. Çünki Azərbaycan xalqı yaxşı bilir ki, o vaxt erməni lobbisi və onun havadarları Azərbaycan haqqında olmazın yalanlar uydurub media məkanına atmışlar. Ancaq uzun illər ərzində Heydər Əliyev Fondunun müxtəlif ölkələrdə fəaliyyəti və Azərbaycanın müasir, mütərəqqi dövlət kimi tanıdılması bu təbliğatı alt-üst etmişdir. Bu gün Heydər Əliyev Fondu qarşısında yeni vəzifələr dayanır. Ənənəvi fəaliyyətlə yanaşı, bu gün Fond azad edilmiş torpaqlarda geniş fəaliyyətə başlamışdır".

## "HEYDƏR ƏLİYEV BİZİMLƏ OLMASA DA, ONUN İDEYALARI YAŞAYIR"

Heydər Əliyev Fondunun prezidenti Azərbaycanın Birinci xanımı, Mehriban Əliyeva hər zaman xalqın yanında olan onun problem və qayğıları ilə maraqlanan və onların çözülməsinə çalışaraq həqiqətən də insanların ümid, pənah yeridir. Xeyirxahlıq, haqq-ədalət ünvanıdır. Ulu Öndər Heydər Əliyev ideyalarını davam etdirən Fondun şaxəli fəaliyyəti Azərbaycanın sosial, iqtisadi, mədəni həyatında əks-səda doğuraraq, birmənalı qəbul edilir. Mehriban Əliyeva Ulu Öndər Heydər Əliyev haqqında belə deyir: "O, Vətəninə, müstəqil, çiçəklənən, qüdrətli Azərbaycanda xoşbəxt görmək istədiyi xalqına olan sonsuz sevgisini hər şeydən üstün tuturdu. Bu gün Heydər Əliyev bizimlə olmasa da, onun ideyaları yaşayır, niyyətləri həyata keçirilir. Ən başlıcası onun müqəddəs arzusu reallaşıb".

Hər bir addımı böyük rəğbətlə qarşılanan Fondun humanitar missiyada fəaliyyət proqramlarının həyata keçirilməsi vətəndaşların qayğı və problemlərinin həllində müstəsnadır. Həyata keçirilən bütün layihələr vətəndaşların hərtərəfli qayğı ilə əhatələnməsi, sosial rifahının yüksəldilməsi məqsədini daşıyır. Uşaq bağçalarının, orta məktəblərin, səhiyyə müəssisələrinin təmir və inşası, eləcə də, əqli, fiziki cəhətdən zəif, qüsurlu olan uşaqlara, yaşlı və kimsəsiz insanlara maddi və mənəvi dayaq olması, şəkərli diabet, böyrək çatışmazlığından əziyyət çəkənlərə pulsuz və yüksək səviyyədə yardım və kömək göstərilməsi Heydər Əliyev Fondunun qısa bir zaman məsafəsində gördüyü işlərin uğuru olaraq qəbul edilir.

Azərbaycanda uşaqların sağlam və gümrah böyüməleri, onların Vətənə layiqli övlad kimi yetişməsi, mükəmməl təhsil almaları dövlətin daim diqqət mərkəzində saxladığı prioritet məsələlərdəndir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva uşaqların xoşbəxt gələcəyi üçün bütün imkanlardan istifadə edir, bu sahəni daim diqqət mərkəzində saxlayır. Heydər Əliyev Fondunun bu sahədə gördüyü işləri isə sadalamaqla qurtaran deyil. Valideyn himayəsindən məhrum olunmuş uşaqların rifah halının yaxşılaşdırılması, hüquqlarının qorunması, cəmiyyətdə hərtərəfli inkişafı, onlara yüksək səviyyədə səhiyyə xidmətlərinin göstərilməsi Heydər Əliyev Fondunun diqqətdə saxladığı ən vacib məsələlərdəndir. Fondun prezidentinin təşəbbüsü ilə hazırlanmış "Uşaq evləri və internat məktəblərinin inkişafı Proqramı" çərçivəsində xüsusi qayğıya ehtiyacı olan uşaqların təhsil aldıqları onlarla internat məktəbi və uşaq evləri əsaslı təmir edilmiş, ən müasir avadanlıqlarla təchiz olunmuşdur. Hətta, kimsəsiz uşaqlara ev şəraitinə uyğun mühit yaradılmışdır. Gənc nəslin təhsili və sağlamlığının qorunması Heydər Əliyev Fondunun fəaliyyətinin prioritet istiqamətlərindən biri olduğundan Fond ölkədə həyata keçirilən təhsil və səhiyyə islahatlarında xüsusi fəallıq nümayiş etdirir. Heydər Əliyev Fondunun bu sahədə həyata keçirdiyi tədbirlər isə birbaşa genefondun qorunmasına, bu sahədə mövcud problemlərin əsaslı həllinə yönəlmişdir. Məktəbəqədər hazırlıq müəssisələrinin, uşaq bağçalarının müasir standartlar səviyyəsində qurulması, onların maddi-texniki bazasının gücləndirilməsi Heydər Əliyev Fondunun diqqət mərkəzindədir.

*Ardı Səh. 4*

Əvvəli Səh. 3

# Heydər Əliyev Fondu: 21 ilin uğurları



"Uşaq evləri və internat məktəblərinin inkişafı proqramı" çərçivəsində ölkəmizdə uşaq evi və internat məktəbi əsaslı təmir olunub və bu müəssisələrdə yaşayan uşaqların problemlərini daim diqqətdə saxlanılıb. "Təhsilə dəstək", "Diabetli uşaqlara ən yüksək qayğı" kimi layihələri onun humanizm prinsiplərindən qaynaqlanır. Bütün bu reallıqlar Mehriban Əliyevanın bir qadın, ana, ictimai xadim kimi fəaliyyətində reallığa çevrilib.

## DİNLƏR VƏ MƏDƏNİYYƏTLƏRARASI DİALOQUN NÜMUNƏSİ

Milli-mənəvi dəyərlərin qorunması və dini ziyarətgahların yenidən qurulması prosesinə fəal surətdə qoşulan Heydər Əliyev Fondunun ölkəmizdə həyata keçirdiyi "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində ölkədə bir neçə dini ocağın təmiri və yenidən qurulması həyata keçirilmişdir. Fondun təşəbbüsü ilə Gəncədə Comərd Qəssab və Cavad xan türbələri yüksək səviyyədə bərpa edilmişdir. Bu sırada paytaxtın Buzovna qəsəbəsində "Tolerantlığın ünvanı - Azərbaycan" layihəsi çərçivəsində əsaslı surətdə yenidən qurulan Cümə məscidi də xüsusi əhəmiyyət kəsb edir. Azərbaycan ərazisində, bütövlükdə Cənubi Qafqazda və Yaxın Şərqdə ən qədim müsəlman məbədlərindən olan Şamaxı Cümə məscidində əsaslı təmir və yenidənqurma işləri aparılmış, Qəbələdə isə yeni məscid inşa olunmuşdur.

Azərbaycanda bütün dövrlərdə, ictimai-siyasi quruluşdan asılı olmayaraq, müxtəlif dillərdə danışan, müxtəlif dinləri təmsil edən insanlar sülh, əmin-amanlıq və qarşılıqlı hörmət şəraitində bir ailə kimi yaşayıblar. Bu gün də belədir. Müasir dünyamızda çoxkonfessiyalı və çoxmillətli Azərbaycan bu ənənələrə sadiqdir və bu, ən böyük sərvətlərdən biridir. Təsadüfi deyildir ki, son illər mədəniyyətlərarası və sivilizasiyalararası dialoqa töhfələrini verir. Müasir dövrümüzdə Heydər Əliyev Fondu, nəinki Azərbaycanın, eləcə də, ümumdünya mədəni irsinin qorunmasına böyük əhəmiyyət verir. Fondun layihələrindən olan "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində Avropada Versal Sarayının memarlıq abidələrinin, kafedral kilsənin vitrajlarının bərpası Azərbaycanda tolerantlığın, dözümlülüyün, dünya mədəniyyətlərinin rəngarəngliyinə hörmətin qədim və möhkəm kökləri olduğunu özündə bir daha ehtiva edir. Azərbaycanın Birinci xanımı Mehriban Əliyeva Roma şəhərinin ətrafında yerləşən 60-a yaxın katakombaların bərpasında əhəmiyyətili işlərə imza atmışdır. Müqəddəs Marçellinio və Pietro katakombaları xristian aləmi üçün ən mühüm və ən maraqlı abidələrdən biridir və bu addım dinlər və mədəniyyətlərarası dialoqun daha bir parlaq nümunəsi olaraq tarixə yazıldı. Romanın belə nüfuzlu arxeoloji abidəsinin bərpasına töhfəsini verən Heydər Əliyev Fondu tarixi missiyasını həyata keçirmiş oldu. Heydər Əliyev Fondunun Fransanın Orn Departamentinin Santiyi, Fresnay o Sovaj, San-İler la Jerar, Tanvil, Kurjust, Revoyon və Mal yaşayış qəsəbələrində X-XII əsrlərə aid 7 kilsənin bərpasına yardım etməsi də "Azərbaycan - tolerantlığın ünvanı" layihəsi çərçivəsində reallığa çevrilib.




Fəaliyyəti dövründə əldə etdiyi nailiyyətlər Fondun qeyri-hökumət təşkilatı olaraq həyata keçirdiyi layihələri ilə təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazandığını göstərir. Gördüyü işlərində təvazökarlıq göstərir. Mehriban Əliyeva həqiqətən, gördüyü işlərlə kimliyini, böyüklüyünü bu dünyada gördüyü işlərlə reallaşdırır. Məmləkətinə şərəf gətirən Mehriban xanım Əliyeva Azərbaycan qadını, Azərbaycan İnsanı obrazını yaradıb. Azərbaycan haqqında olan təsəvvür, insan haqqında olan təsəvvür Onun layihələri əsasında tamam fərqli bir şəkildə meydana çıxıb. Bütün dünyaya müstəqil dövlətdə yaşayan qadın obrazının lazımi şəkildə təqdiminə nail olub.



Qloballaşma prosesində Azərbaycan mədəniyyətinə xüsusi diqqət ayrılaraq, Azərbaycan mədəniyyətinin geniş təbliği, sağlam mənəvi dəyərlərin qorunması ilə bağlı aparılan işlər də diqqətdən kənarda deyil. Mehriban xanım Əliyevanın Azərbaycan mədəniyyətinin inkişafında, dünyada təbliğində əvəzsiz xidmətləri vardır. Azərbaycanın Birinci Xanımı ölkəmizdə müntəzəm olaraq keçirilən müxtəlif beynəlxalq mədəniyyət tədbirlərinin və festivallarının təşkilində mühüm rol oynayır. Beynəlxalq muğam festivalı və muğam ifaçılarının müsabiqəsi, M.Rastropoviç adına, eləcə də D.Şostakoviçin və Bülbülün yubileylərinə həsr edilmiş beynəlxalq festivallar, Qəbələ Musiqi Festivalı, Aşıqların Beynəlxalq Festivalı kimi tədbirlər, məhz Mehriban Əliyevanın yaxından dəstəyi ilə həyata keçirilib. Bakıda Beynəlxalq Muğam Teatrının, Müasir İncəsənət Muzeyinin binaları tikilib, açıq səma altında "Qala" arxeoloji-etnoqrafik muzey kompleksi yaradılıb.

## BÖYÜK MƏSULİYYƏT VƏ ZƏHMƏTİN BƏHRƏSİ

Mehriban xanım bütün fəaliyyəti dövründə xalqın maraqlarını əsas götürərək, ictimai, sosial layihələri ilə öz ətrafında böyük imic formalaşdırıb. 44 gün davam edən müharibədə Müzəffər Azərbaycan Ordusunun təcavüzkar Ermənistanı məğlub edərək, işğaldan azad etdiyi Vətən torpaqlarında bu gün həyata keçirilən tikinti-bərpa işlərində Mehriban xanım Əliyevanın da həyata keçidiyi layihələr töhfəsini verməkdədir. Böyük Qayıdışın möhtəşəm olacağına əminik və bu işdə Mehriban Əliyevanın payı müstəsna olacaqdır. Artıq bu işlərin ilkin addımlarını və reallaşan layihələri görürük. Heydər Əliyev Fondu məscidlərin təmirini öz üzərinə götürüb. Heydər Əliyev Fondunun dəstəyi ilə bürüncdən hazırlanan M.P. Vaqifin büstü öz əvvəlki yerinə qaytarılıb. Görülən işlər kifayət qədərdir. Damarlarında azərbaycanlı qanı qövr edən Böyük Ziyalının işığında Azərbaycanın hər bir bölgəsində əməyini, layihələrini görürük. Bu hər kəsi qürurlandırır.

İctimai-siyasi, mədəni həyatda aparıcı qüvvəyə çevrilmək, əməli fəaliyyətilə böyük nüfuza sahib olmaq, örnəyə çevrilmək böyük məsuliyyət və zəhmətin bəhrəsidir. Əlbəttə ki, vətənpərvərlik, vətənə bağlılıq insanı xalqı, milləti üçün böyük amallara xidmət etməyə sövq edir. Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın Azərbaycanın ictimai-siyasi, mədəni həyatında müstəsna rola malik olması onun vətənə bağlılığından irəli gəlir. Müstəqil Azərbaycanda Ümummilli Lider Heydər Əliyev ideyalarını davam etdirən və mövcud prinsiplər və ənənə ilə fəaliyyət göstərən Heydər Əliyev Fondu genişmiqyaslı fəaliyyəti onu nəinki Azərbaycanda, hətta onun hüdudlarından kənarda belə əks-səda doğurub. Heydər Əliyev ideyalarını dəstəkləyərək, ölkənin sosial-iqtisadi, mədəni tərəqqisi, sivil dünya birliyinə inteqrasiyası, xalqın maddi rifahının yaxşılaşması naminə fəaliyyətini davam etdirir. Fondun 21 illik fəaliyyəti dövründə həyata keçirdiyi layihələr təkcə Azərbaycanda deyil, beynəlxalq aləmdə böyük nüfuz qazanıb. Azərbaycanın çiçəklənməsi, beynəlxalq nüfuzunun artmasına böyük töhfələr verən Heydər Əliyev Fondunun gələcək fəaliyyətinin əsasında qeyd etdiyimiz məsələlərin daha da geniş bir planda həyata keçirilməsi dayanır.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Parklarda etik davranışlara əməl etməmək

# DÜZGÜN DEYİL!

***Parklar ictimai istirahət məkanları olmaqla yanaşı, eyni zamanda cəmiyyətin mədəniyyətini və davranış səviyyəsini əks etdirən ərazilərdir. Burada insanların bir-birinə və ətraf mühitə qarşı necə davrandığı, ictimai əmlakın qorunması və nizam-intizamın saxlanılması etik qaydaların vacibliyini göstərir. Etik davranış qaydalarına riayət etmək yalnız fərdi məsuliyyət deyil, həm də ictimai həmrəyliyin və qarşılıqlı hörmətin əsas şərtidir. Bəs vətəndaşlarımız buna əməl edirmi? SİA bu barədə sorğu keçirib.***




**Şəhər sakini Elyana Vəliyeva:** ”Təbii ki, mən parkda etik davranışlara düzgün əməl etməyən şəxslərə yaxşı baxmıram. Parklar ictimai yerlərdir və orada hər bir və-



təndaşın istirahət və idman hüququ qorunmalıdır. Əgər idman əşyaları və ya digər ictimai avadanlıqlar həmin əraziyə yerləşdirilibsə, bu o deməkdir ki, onlar insanların sağlamlığını, rifahını və aktiv həyat tərzini təşviq etmək üçün qoyulub. Bu avadanlıqlar cəmiyyətin ümumi istifadəsi üçün nəzərdə tutulub və onlara hörmətlə yanaşmaq hər bir vətəndaşın vəzifəsidir.

Ümumiyyətlə, belə tərbiyəvi davranış formaları erkən yaşlardan - uşaq bağçalarından və məktəblərdən etibarən aşılanmalıdır. Uşaqlara ictimai əmlaka necə yanaşmaq, onu necə qorumaq və paylaşmaq öyrədilməlidir. Əgər bu cür davranış qaydaları təhsil müəssisələrində formalaşdırılmazsa, gələcəkdə cəmiyyətimizdə məsuliyyətsiz və laqeyd vətəndaşlar formalaşa bilər.

**Şəhər sakini Sevinc Xalıqova:** ”Mən bu cür hallara çox mənfi yanaşıram. İdman avadanlıqları insanların sağlam həyat tərzi sürməsi üçün quraşdırılıb və hər kəsin ondan düzgün şəkildə istifadə etməsi vacibdir. Bu cür qeyri-mədəni davranışlar, həm ictimai əmlaka hörmətsizlik, həm də cəmiyyətin



ümumi mədəniyyət səviyyəsini aşağı salır. Məncə, belə halların əsas səbəbi ailədə verilən tərbiyədən qaynaqlanır. Mədəniyyət, hörmət və əxlaqi dəyərlər ilk növbədə ailədə öyrədilməlidir. İnsan böyüyə hörmət etməyi, kiçiyə qayğı göstərməyi, ictimai yerlərdə necə davranmalı olduğunu evdən öyrənməlidir. Əgər ailə bu dəyərləri düzgün şəkildə aşılasa, cəmiyyətimiz daha sağlam və mədəni olar”.

**Şəhər sakini Fəridə Babayeva:** ”Hər kəsin öz fərdi mədəniyyət göstəricisi var. Təbii ki, insanlar şəxsi təmizliyinə və səliqə-



sinə diqqət yetirməli, ictimai yerlərdə özlərini məsuliyyətli aparmalıdırlar. Belə davranışlar sadəcə şəxsi mədəniyyətin deyil, ümumi cəmiyyətə olan hörmətin də göstəricisidir. Lakin təəssüf ki, bəzi insanlar bu normalara əməl etmir və öz bildikləri kimi davranmağa davam edirlər. Belə hallarda nəsə demək də çətin olur, çünki bəziləri tənqidi qəbul etmir. Mən özüm də bu cür vəziyyətlərlə tez-tez rastlaşıram və bu, cəmiyyətdə maarifləndirmə işlərinin nə qədər vacib olduğunu göstərir”.

**Şəhər sakini Arifə Həşimova:** ”Bu cür hərəkətləri heç bir halda yaxşı qiymətləndirmirəm. Əksinə, biz cəmiyyət olaraq ətraf mühitimizi, parklarımızı və ictimai əraziləri qorumağa çalışmalıyıq. Bu məkanlar hər birimizin ortaq sərvətidir və onlara qayğı ilə yanaşmaq hər birimizin vətəndaşlıq borcu-



dur.

Lazım gəldikdə etik çərçivədə xəbərdarlıq etməli və bu cür davranışlara qarşı ictimai qınaq formalaşdırmalıyıq. Əgər hər birimiz bu məsuliyyəti üzərimizə götürsək, daha təmiz, mədəni və qaydalara hörmət edən bir cəmiyyət qurmaq mümkündür”.

**Şəhər sakini Firəngiz Əliyeva:** ”Etik normalara əməl etməyən insanlara münasibətim heç də müsbət deyil. Belə davranışlar nə cəmiyyətə, nə də fərdlərə yaraşır. Təəssüf ki, bu hallarla xüsusilə gənc nəsil arasında daha tez-tez rastlaşırıq. Halbuki gənclər cəmiyyətin gələcəyidir və onların davranışları gələcək nəsillərə örnək olmalıdır. Məncə bu kimi hallar birbaşa ailədə verilən tərbiyədən qaynaqlanır. Hər kəsə məlumdur ki, uşağın ilk tərbiyə məktəbi ailədir.

Ailədə formalaşan dəyərlər və davranış qaydaları məktəbdə təhsillə tamamlanmalıdır. Əgər uşaq ailədə hörmət, mədəniyyət və ictimai məsuliyyət anlayışlarını öyrənməzsə, bu boşluq məktəbdə də tam şəkildə doldurula bilməz. Nəticədə cəmiyyətdə etik qaydalara əməl etməyən, qaydalara hörmət göstərməyən fərdlər yetişir. Buna görə də həm ailələr, həm məktəblər, həm də ictimai institutlar birgə şəkildə bu məsələyə diqqət yetirməlidir”.



**Şəhər sakini Samirə Fidayeva:** ”Bu kimi halları mənfi qarşılayıram, çünki ictimai mülkiyyətə zərər vermək nə hüquqi, nə də mənəvi baxımdan qəbulolunan deyil. Əgər



bir avadanlıq hər kəsin istifadəsi üçün quraşdırılıbsa, deməli, o ictimai əmlakdır və onu qorumaq hər birimizin borcudur. Təəssüf ki, bəziləri bu məsuliyyəti dərk etmir və həmin alətlərlə sanki şəxsi əşyalarıymış kimi kobud davranır, onları zədələyirlər. Bu isə yalnız cəmiyyətə ziyan vurur.

Digər tərəfdən, ictimai yerlərdə etik qaydalara əməl etməyən, nə danışığını, nə də davranışını tənzimləyə bilməyən gənclərlə də rastlaşmaq mümkündür. Bu cür davranışların kökü isə, şübhəsiz ki, düzgün tərbiyənin verilməməsindədir. Uşağın ilk müəllimi onun valideynləridir. Əgər valideyn ona hörmət, məsuliyyət və etik davranış normalarını öyrətmirsə, o uşaq cəmiyyətə uyğunlaşmaqda çətinlik çəkəcək. Valideynin verdiyi tərbiyə nə qədər sağlam olarsa, gələcək nəsillər də bir o qədər mədəni və cəmiyyətə faydalı olar”.

**Şəhər sakini Elmar Əhmədov:** ”Belə halların ümumiyyətlə baş verməməsi gərəkdir. Əslində etik davranış normalarına əməl etmək sadəcə şəxsi məsələ deyil, bütün cəmiyyətin rifahına təsir edən vacib bir dəyərdir. Bu düşüncə geniş yayılmalıdır ki, insanlar ictimai davranış qaydalarına qarşı daha məsuliyyətli olsunlar. Maarifləndirmə, nümunəvi davranış və ictimai qınaq vasitəsilə etik qaydalara əməl etməyin vacibliyi cəmiyyətə aşılanmalıdır.



Məsələn, 10-15 il əvvəl insanlar zibili zibil qutusuna atmağa o qədər də diqqət yetirmirdilər. Bu gün də belə hallar tam aradan qalxmasa da, artıq bir çox insan bunun düzgün olmadığını anlayır və cəmiyyət tərəfindən qəbul edilmir. Deməli, zamanla davranışlarda dəyişiklik mümkündür. Eyni yanaşma digər ictimai və etik məsələlərə də tətbiq olunmalıdır. Əgər bu istiqamətdə maarifləndirmə və düzgün nümunə göstərmək davamlı olarsa, inanmaq olar ki, gələcəkdə bu cür mənfi halların sayı da azalacaq”.

***Xeyrənsə Piriyeva***

# Ulu Öndərin ömür yolu Vətənə və xalqa xidmət nümunəsidir




Tarixi proseslərin gedişatı göstərir ki, hər bir millətin və dövlətin ən çətin anlarında və taleyüklü məqamlarında onu doğru yola aparan, sözün əsil və məcazi mənasında döyüş meydanında qələbəyə səsləyən rəhbərə, şəxsiyyətə və liderə ehtiyac yaranır. Belə ki, tarixi şəxsiyyətlər də xüsusi missiyanın daşıyıcısı olaraq xalqın, millətin digər nümayəndələrindən fərqlənərək, xalqın arasından çıxaraq kütlənin önündə bayraqdar olmaq missiyası ilə doğulur, bu missiyanın da daşıyıcısı olaraq həyatını şəxsi maraqlara deyil, ümummilli maraqlara həsr və fəda edirlər. Bu tarixi missiya müstəqil və müasir Azərbaycan dövlətini yenidən inşa edən, onun adının dünya müstəvisində öndə gedən dövlətlər sırasında məğrur dayanmasını təmin edən, öz uzaqgörən və çevik siyasəti ilə dünya siyasətçilərini daim heyrətə gətirməyi bacaran, mənsubu olduğu xalqının hər bir nümayəndəsini ürəkdən sevən dahi şəxsiyyət, ulu öndər Heydər Əliyevə məxsusdur. Zamanında alınan qərarların bugünkü nəticəsi illər ötdükcə bizə ümummilli liderimiz Heydər Əliyevin böyüklüyünü, müdrikliyini, xalqını, vətənini necə sonsuz bir məhəbbətlə sevdiyini daha çox dərindən dərk etməyə imkan verir. Çünki bir tərəfdən bu siyasət nəhənginin fəaliyyəti sadəcə Azərbaycanın deyil, bütövlükdə insanlığın, humanizmin, bəşəri dəyərlərin təmin olunmasına, daha da möhkəmləndirilməsinə həsr olunmuşdursa digər tərəfdən də Azərbaycanın bugünkü mövcud durumunu, qalib dövlət və qəhrəman xalq obrazını sığortalamışdı.

İstər sovet dönəmi, istərsə də müstəqillik illərində xalqımızın ictimai-siyasi, iqtisadi və mədəni həyatında baş verən yüksək inkişaf ümummilli lider Heydər Əliyevin yorulmaz fəaliyyəti, müdrik siyasəti ilə gerçəkləşib. Təcrübəli dövlət xadimi olan Heydər Əliyev zamanın ən ağır və mürəkkəb sınaqlarına mətinliklə sinə gərərək, bugünkü müstəqil Azərbaycanı qurub, respublikamızın gələcək tərəqqisi üçün möhkəm təməl yaradıb. Dahi şəxsiyyət zəngin mədəniyyəti, şərəfli tarixi keçmişi ilə həmişə qürur duyduğu, fərəh hissi keçirdiyi doğma Azərbaycanı bir dövlət kimi dövrün ən sərt sınaqlarından uğurla çıxararaq, xalqımıza əmanət edib.1993-cü ilin may-iyununda hökumət böhranının son dərəcə kəskinləşməsi ilə ölkədə vətəndaş müharibəsinin baş verməsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandı. Belə bir çətin məqamda xalq bütün ümidlərini Heydər Əliyevə bağladı və məhz onun hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı. Heydər Əliyevin hakimiyyətə gəlməsi ilə vətəndaş müharibəsinin, qardaş qırğının qarşısı alındı. Heydər Əliyevin bütün xalqı vahid amal-birlik ətrafında birləşdirməsi ilə Azərbaycan məhv olmağın astanasından döndü.

Bütün mənalı həyatını ölkəmizin tərəqqisinə, insanların rifahının yaxşılaşdırılmasına həsr edən Ümummilli Liderimizin ən böyük arzusu işğal olunmuş torpaqlarımızın azad edilməsi idi. O, bunun üçün var qüvvəsi ilə çalışırdı. Doğma ocaqlarından didərgin düşmüş qaçqın və məcburi köçkünlərin bütün problemlərinin həll olunması üçün bütün imkanları səfərbər etmişdir. Və onun ən böyük xidmətlərindən biri də 1994-cü ildə atəşkəslə bağlı sənədin imzalanması olmuşdur.

Ümummilli lider Heydər Əliyev xalqa müraciətində deyirdi: "Mən İlham Əliyevə özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm". Bu günün reallığı Heydər Əliyevin siyasi uzaqgörənliyinin bu məsələyə də öz möhürünü vurduğunu sübut edirsə, digər tərəfdən də Azərbaycan xalqının da seçimində yanılmadığını təsdiq edir. Ölkədə cənab İlham Əliyev tərəfindən aparılan islahatlar və quruculuq işləri, həyata keçirilən güclü dövlət, güclü ordu strategiyası, çox vektorlu siyasi münasibətlər, regional və beynəlxalq əhəmiyyətli layihələr torpaqlarımızın işğaldan azad olmasının səbəbidir. Azərbaycan sübut etdi ki, öz ərazi bütövlüyünü qorumağı bacarır və 44 günlük Vətən müharibəsi bunun bariz nümunəsidir. Azərbaycan xalqına Qarabağ Zəfərini yaşadan, onu dünya xalqları arasında şərəfli, qürurlu və ləyaqətli xalq kimi tanıdan Müzəffər Ali Baş Komandan İlham Əliyevə bütün xalq sonsuz güvənir, inanır və məhz onun rəhbərliyi altında Azərbaycanın daha xoşbəxt gələcəyinə böyük ümidlər bəsləyir. Bu mirası bizə qoyub gedən ulu öndər Heydər Əliyevin uca xatirəsini Azərbaycan xalqı hər zaman əziz tutur. Heydər Əliyev dövrü Azərbaycanın inkişaf, sabitlik, tərəqqi, müstəqillik mərhələsi, dövlət müstəqilliyinin təməllərinin çox ciddi və möhkəm əsaslarda qoyulduğu dövrdür. Azərbaycan xalqı bunu çox yüksək qiymətləndirir. Çünki illər keçdikcə Ümummilli Liderimizin gördüyü işlərin böyüklüyü, möhtəşəmliyi daha aydın görünür, daha yaxşı dərk edilir.

***Abil Ağasəfov***
***YAP Qəbələ rayon təşkilatının sədri***

# Ümummilli Liderin 102-ci ildönümünə həsr olunmuş ağacəkmə aksiyası keçirilib

***Xətai rayonunda Ümummilli Lider Heydər Əliyevin 102-ci ildönümünə həsr olunmuş ağacəkmə aksiyası keçirilib. SİA xəbər verir ki, tədbir Xətai Rayon İcra Hakimiyyəti, Yeni Azərbaycan Partiyası Xətai rayon təşkilatı, SƏS Media Qrupu və "SSAL-2" şirkətinin birgə təşkilatçılığı ilə baş tutub. Aksiyada millət vəkilləri, ictimai-siyasi xadimlər, media nümayəndələri, rayon ictimaiyyəti və digər qonaqlar iştirak ediblər. Tədbir iştirakçıları əvvəlcə Ümummilli Liderin əziz xatirəsini ehtiramla yad edərək, onun Azərbaycan xalqı və dövləti qarşısında misilsiz xidmətlərini xüsusi vurğulayıblar.***



Tədbirin təşkilatçılarından SƏS Media Qrupunun rəhbəri Bəhruz Quliyev qeyd edib ki, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 102-ci ildönümü münasibətilə 102 ağac əkilib. Bu ağacların 51-i "Küknar", digər 51-i isə "Eldar şamı"dır: "Ulu Öndərimizin ad günü münasibəti ilə Azərbaycan Respublikasının demək olar ki, bütün rayonlarında tədbirlər keçirilir. Bu kimi xeyirxah tədbirlər insanların rahat nəfəs almasına xidmət edir. Hesab edirəm ki, bu xeyirxah işlərdən gələcəkdə hər kəs bəhrələnəcək. Ulu Öndərmizin xalqımız qarşısında xidmətləri çoxdur və onu hər kəs daima yada salacaq. Azərbaycan xalqı uzun illər yaşadıqca və dövlətimiz güclü olduqca hər zaman Ulu Öndərimiz anılacaq və onun ad günləri bu cür qeyd olunacaq. Həmçinin Ulu Öndərimizin ad gününü Azərbaycan xalqı ənənəvi olaraq bir bayram kimi qeyd edir. Ona görə də Heydər Əliyev ölməz bir şəxsiyyətdir. Onun ölməzliyi əməllərinin yaşamasındadır. Onun əməlləri yaşadıqca Ümummilli Lider Heydər Əliyev hər zaman Azərbaycan xalqının ürəyində yaşayacaqdır".

Eyni zamanda tədbirin təşkilatçılarından biri olan "SSAL-2" MMC-nin təsisçisi və direktoru Mirsədi Seyidov bildirib ki, tədbirlə bağlı şirkət olaraq tədbirdə iştirak etməyi özümüzə şərəf duyuruq: "Ulu Öndərin 102 illik doğum günü münasibətilə şirkət və kollektiv olaraq öz təşəbbüsümüzü göstəririk. Ulu Öndərin Azərbaycanın dizaynı, xüsusən müstəqil Azərbaycanın qurulmasında olan xidmətini yüksək qiymətləndiririk. Bizdə Ulu Öndərin davamçıları olaraq onun uğurlu siyasətini və dövlətçilik ənənələrini davam etdiririk. Cənab Prezidentimiz İlham Əliyevin əldə etdiyi uğurlu nəticələrlə, eyni formada onlarla bərabər dövlət və dövlətçiliyimiz üçün hər zaman üzərimizə düşən bütün məsələlərdə bir yerdəyik".





***Xeyrənsə Piriyeva***

# Ulu Öndər Heydər Əliyevin adı çoxəsrlik dövlətçilik tariximizə əbədi həkk olunub





*Zahir Qəhrəmanov*
*YAP Şirvan şəhər təşkilatının sədri*



***Azərbaycanın müasir tarixindən danışanda, ilk ağla gələn ad Heydər Əliyev olur. O, sadəcə bir siyasi lider deyildi. O, çətin zamanlarda xalqın inamını qazana bilmiş, dövlətçilik məktəbi yaratmış və Azərbaycanın gələcəyini formalaşdırmış şəxsiyyət idi. Onun fəaliyyəti təkcə bir dövrün yox, bütöv bir xalqın taleyinə təsir etmişdir. Bu səbəbdən də Heydər Əliyev haqqında danışmaq sadəcə keçmişi xatırlamaq deyil, həm də bu günün mahiyyətini anlamaq deməkdir.***

Heydər Əliyevin siyasi səhnəyə çıxışı təsadüfi deyildi. 1969-cu ildə Azərbaycan Kommunist Partiyasının birinci katibi seçilməsi ilə o, ölkə həyatında böyük dəyişikliklərə imza atdı. Həmin dövrdə Azərbaycan SSR-in iqtisadi və sosial göstəriciləri yüksəlməyə başladı. Heydər Əliyev rəhbərlik etdiyi illərdə sənaye müəssisələrinin tikintisinə, kadr hazırlığına və təhsilin inkişafına xüsusi diqqət ayırdı. Onun uzaqgörən siyasəti nəticəsində minlərlə azərbaycanlı gənc keçmiş SSRİ-nin aparıcı ali məktəblərində təhsil almağa göndərildi.

Sovet İttifaqı dövründə yüksək vəzifələrdə çalışmasına baxmayaraq, Heydər Əliyev milli kimliyini heç vaxt unutmadı. Bu, onun sonralar müstəqillik dövründəki fəaliyyətində də açıq görünürdü. 1990-cı illərin əvvəllərində Azərbaycan çox ağır vəziyyətdə idi. Qarabağ müharibəsi, daxili siyasi qarşıdurmalar, iqtisadi tənəzzül və dövlətçiliyin sarsılması fonunda xalq çarəsizlik içində idi. Belə bir vaxtda Heydər Əliyevin yenidən hakimiyyətə qayıtması ölkədə sabitlik və ümid yaratdı.

1993-cü ildə xalqın istəyi ilə prezident seçilən Heydər Əliyev dərhal ölkənin inkişafı üçün vacib addımlar atdı. Onun rəhbərliyi ilə Azərbaycanın neft strategiyası formalaşdı və "Əsrin müqaviləsi" imzalandı. Bu müqavilə ilə xarici sərmayədarlar ölkəyə cəlb olundu, neft gəlirləri hesabına sosial və iqtisadi sahələrdə böyük irəliləyişlər baş verdi. Həmçinin, Azərbaycanın beynəlxalq aləmdə tanınması və nüfuz qazanması prosesi də məhz bu dövrdə sürətləndi.

Heydər Əliyevin siyasətində ən önəmli istiqamətlərdən biri milli birliyin və vətəndaş həmrəyliyinin möhkəmləndirilməsi idi. O, "azərbaycançılıq" ideyasını önə çəkərək, bütün vətəndaşları etnik və dini mənsubiyyətindən asılı olmayaraq vahid milli ideya ətrafında birləşdirməyə çalışdı. Bu ideya bu gün də ölkənin daxili sabitliyinin əsas dayaqlarından biridir. Onun məşhur "Mən həmişə fəxr etmişəm, bu gün də fəxr edirəm ki, azərbaycanlıyam!" ifadəsi yalnız bir sevgi etirafı deyildi, eyni zamanda güclü ideoloji xəttin təməli idi.

Təhsil və gənclər siyasəti də Heydər Əliyevin fəaliyyətində mühüm yer tuturdu. O, gəncləri dövlətin gələcəyi hesab edirdi və bu istiqamətdə çoxsaylı proqramlar həyata keçirirdi. Onun təşəbbüsü ilə minlərlə tələbə xarici ölkələrdə təhsil almağa göndərildi, ölkə daxilində isə ali məktəblərin maddi-texniki bazası gücləndirildi. Heydər Əliyev hesab edirdi ki, savadlı, vətənpərvər və müasir düşüncəli gənclər dövlətin inkişafında həlledici rol oynayacaq.

Eyni zamanda, Heydər Əliyev mədəniyyətin və milli dəyərlərin qorunmasına xüsusi önəm verirdi. Onun dövründə milli musiqi, ədəbiyyat və incəsənət sahələrinə ciddi dəstək göstərildi. O, bu sahəni sadəcə bir ictimai fəaliyyət növü kimi yox, həm də milli kimliyin əsas sütunlarından biri kimi görürdü.

Onun siyasi üslubu da maraqlıdır. Heydər Əliyev çox qətiyyətli, lakin eyni zamanda humanist bir lider idi. Cəmiyyətin müxtəlif təbəqələri ilə ünsiyyətdə olan zaman sadə və səmimi davranışı ilə seçilirdi. O, xalqla təmasda olmağa, onların dərdini dinləməyə və problemlərə konkret həll yolları təklif etməyə çalışırdı. Onun nitqləri yalnız siyasi mövqe ifadə etmirdi, həm də emosional bağlılıq yaradırdı.

Heydər Əliyev təkcə siyasi lider deyil, həm də dərin düşüncəyə malik bir dövlət xadimi idi. O, hər zaman Azərbaycanın gələcəyini düşünərək addımlar atırdı. Ölkənin müstəqilliyini qorumaqla yanaşı, onu möhkəmləndirmək və inkişaf etdirmək onun başlıca məqsədi idi. Bu gün Azərbaycanın dünya miqyasında tanınan, iqtisadi və siyasi cəhətdən güclü dövlətə çevrilməsində onun qoyduğu təməl çox mühüm rol oynayır.

Nəticə olaraq deyə bilərik ki, Heydər Əliyev zamanın yetişdirdiyi və tarixə öz möhürünü vurmuş liderdir. Onun siyasi irsi bu gün də yaşayır və gələcək nəsillər üçün bir yol xəritəsi rolunu oynayır. Tarixdə adını yazdırmaq çətindir, amma xalqın qəlbində yaşamaq daha da çətindir. Heydər Əliyev isə hər iki mərhələni uğurla keçmiş nadir şəxsiyyətlərdən biridir.

# 1941-1945: yaşanan və yaşadılan tarix

***Ümummilli Lider Heydər Əliyev: İkinci dünya müharibəsinin bir tərəfdən dəhşətli dağıntılar, insanların həlak olması, digər tərəfdən dünyanın yenidən dəyişməsi baxımından bəşər tarixində öz yeri var. Bu müharibədə çox xalqlar iştirak edib. Azərbaycan xalqı da o vaxt mənsub olduğu ölkəni, Vətəni müdafiə etmək, dünya mədəniyyətini mürtəce qüvvələrdən xilas etmək üçün bu müharibədə iştirak etmişdir.***

1941-ci ildə Azərbaycan sovet ittifaqının əsarətində olan 15 müttəfiq ölkədən biri idi. 1918-ci ildə qanımız bahasına əldə etdiyimiz müstəqilliyimiz sayəsində yaranan Xalq Cümhuriyyəti 23 ay sonra devriləndən sonra Azərbaycanda sovet hakimiyyəti qurulmuş, biz bu hakimiyyətin qanunları çərçivəsində yaşamağa başlamışdıq. Bu, 70 il davam etdi.

1941-ci ildə başlanan İkinci Dünya Müharibəsində bu müttəfiqlərin hər biri kimi, Azərbaycan xalqı da öz Vətənini müdafiə etmək üçün mübarizəyə qalxmışdı. Çünki faşist Almaniyası Bakıya qədər irəliləməyi planlaşdırırdı. Sual oluna bilər ki, nə üçün? Ona görə ki, Almaniya digər müttəfiqlərdən fərqli olaraq Azərbaycanın sərvəti barədə məlumata malik idi. Və bilirdi ki, Rusiya bu müharibəni Bakı nefti hesabına udacaq. Bu səbəbdən də Bakıya qədər irəliləyib buna imkan verməməyə can atırdı. Belə olan vəziyyətdə isə təbii ki, Azərbaycanın mərd övladları öz Vətənlərinin müdafiəsinə qalxacaqdı. Yeni məntiqlə düşünəndə biz sovet hakimiyyətinin tərkibində idiksə, bunu etməyə də bilməzdik. Çünki dolayısı ilə bunun ağır nəticələrini yenə də biz yaşamalı olacaqdıq. Bu səbəbdən də azərbaycanlılar İkinci Dünya Müharibəsində böyük fədakarlıqlar göstərdilər. Bakı nefti isə Rusiyanın qələbə qazanmasında əsas amil oldu. Bütün bunlar yaşanan tarixdir. Yaşandığı üçün də yaşadılmalıdır.









## Fədakarlıq nümunəsi

1941-1945-ci illər müharibəsində Azərbaycanın mərd oğul və qızları xalqımızın ən ali keyfiyyətini-fədakarlığını, vətənpərvərliyini, sarsılmaz mərdliyini nümayiş etdirmişlər. Dəhşətli müharibənin başlandığı ilk gündən səfərbərlik elan olunmuş, on minlərlə Azərbaycan oğul və qızı döyüş cəbhəsinə könüllü göndərilmək üçün ərizə vermişdir. Arxa cəbhədə isə yaşlı kişilər və respublikanın bütün iş qabiliyyətli qadınları çalışır, xalq təsərrüfatının bütün sahələrində döyüşə gedənləri əvəz edirdilər.

1941-1945-ci illərdə 700 minə yaxın azərbaycanlı, başqa sözlə, respublika əhalisinin hər 5 nəfərindən biri cəbhəyə yollanmış, onların isə 450 min nəfəri və ya 65 faizi orden və medallarla təltif olunmuş, 130 nəfər Sovet İttifaqı Qəhrəmanı adına layiq görülmüşdür. Müharibədə iştirak etmiş soydaşlarımızın təxminən yarısı həlak olmuş, azərbaycanlılardan ibarət 416-cı, 402-ci, 223-cü və 77-ci diviziyalar şərəfli döyüş yolu keçmişdir.

223-cü Diviziya Macarıstan və Yuqoslaviyanın faşistlərdən təmizlənməsində qəhrəmanlıq göstərmiş, 416-cı Diviziyanın əsgərləri isə Berlində qələbə bayrağını ilk qaldıranların sırasında olmuşlar. Ordunun ehtiyacını ödəmək üçün xalqımız arxa cəbhədə də misilsiz əmək hünəri göstərmiş, gecə-gündüz bilmədən çalışmışdır. Qadınlar qızıl zinət əşyalarını təhvil verərək cəbhəyə köməklik göstərmişlər. Onlar həmçinin qiymətli ev əşyalarını da cəbhəyə köməklik üçün əsirgəməmişlər. Bütün bunlar isə xalqımızın qədim adət-ənənələrindən, mentalitetindən irəli gəlirdi. Axı bizim tarixin bütün dönəmlərində kollektivçilik, həmrəylik, paylaşmaq, yardımlaşmaq kimi dəyərli xüsusiyyətlərimiz olub. Qonşularımız da, qonaq gələnlərimiz də əsrlər öncə bu keyfiyyətlərimizin şahidi olmuşlar. Elə buna görə də xalqımız başqa cür yanaşa bilmirdi bu müharibəyə. Kimin əlindən nə gəlirdisə, köməkliyini göstərirdi.

## Həm canımızla, həm sərvətimizlə...

Bakıda hasil edilən neft müharibədə qələbənin qazanılmasına böyük töhfə vermişdir. O illərdə Sovet İttifaqında hasil olunan neftin dörddəüç hissəsi, aviasiya benzininin və yüksəkkeyfiyyətli sürtgü yağlarının 85-90 faizi Azərbaycanın payına düşürdü. Faşizm üzərində qələbənin təmin edilməsində həlledici rol oynamış sovet ordusunun tank və təyyarələrinin tam əksəriyyəti Azərbaycan neftinin hesabına hərəkətə gətirilirdi. Bakı nefti olmasaydı, bu müharibədə hərbi əməliyyatları uğurla başa çatdırmaq mümkün olmazdı. Ona görə də 1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçmiş Azərbaycan övladlarının tarixi şücaəti, habelə arxa cəbhədəki fədakarlığı hər zaman fəxrlə xatırlanır.

Faşizm üzərində qələbədən 80 il ötür. Faşizmə qarşı mübarizədə ön cəbhələrdə fəallıq göstərən, sağlamlığını itirən, doğma yurda sinəsi orden və medallarla qayıdan həmyerlilərimiz bizim üçün qürur və iftixar mənbəyidir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev deyirdi: "Veteranlar bizim qızıl fondumuzdur. Onlar hər cür qayğıya və hörmətə layiqdirlər. Azərbaycanın bütün ictimaiyyəti, bütün Azərbaycan xalqı bilməlidir ki, İkinci Dünya müharibəsinin veteranları bizim ən əziz, ən mötəbər insanlarımızdır. Onlara qayğı göstərmək, hörmət etmək, onların bütün problemlərini həll etmək bizim dövlətimizin və hər bir dövlət orqanının, hər bir Azərbaycan vətəndaşının borcudur".

## Ulu Öndər veteranlara həmişə qayğı bəsləmişdir

Ulu Öndər Vətən yolunda xidməti olan insanlara heç vaxt qayğısını əsirgəməmişdir. Ötən əsrin 70-ci illərində veteranlara göstərilən qayğı Ümummilli Liderimiz siyasi hakimiyyətdən uzaqlaşdırıldıqdan sonra unudulmuş, 1941-1945-ci illər müharibəsi iştirakçılarına, Sovet İttifaqı qəhrəmanlarına və arxa cəbhədə çalışan veteranlara qarşı biganə, laqeyd münasibət göstərilmişdir. Hətta ötən əsrin 90-cı illərinin əvvəllərində ölkəmizdə hakimiyyətdə olanlar 9 May - Qələbə Gününü qeyd etməmək barədə rəsmi tapşırıq da vermişdilər. Ancaq Ümummilli Lider Heydər Əliyevin rəhbərlik etdiyi 1990-1993-cü illərin Naxçıvanında veteranlar qayğı ilə əhatə olunmuş, 9 Mayla bağlı tədbirlər keçirilmişdir. Ümummilli Liderimizin Azərbaycanda yenidən siyasi hakimiyyətə qayıdışından sonra 9 may respublikamızda Qələbə Günü kimi rəsmiləşdirilmiş, dövlət bayramları sırasına daxil edilmiş, müharibə veteranlarının sosial müdafiəsi ildən-ilə gücləndirilmişdir. Onların xatirəsinin əbədiləşdirilməsi istiqamətində sistemli və ardıcıl tədbirlər görülmüş, imtiyazları və statusları bərpa olunmuşdur.

Müharibə veteranları bu gün də hərtərəfli dövlət qayğısı ilə əhatə edilmişlər. Ulu Öndərimizin yolunu uğurla davam etdirən Azərbaycan Prezidenti cənab İlham Əliyev 1941-1945-ci illər müharibəsi iştirakçılarına, arxa cəbhə veteranlarına xüsusi diqqət və qayğı göstərir. Azərbaycan Respublikası Prezidentinin 2025-ci il 21 aprel may tarixli "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncamı ölkəmizdə ümumilikdə 2469 şəxsə şamil olunacaq.

Onlardan 21-i İkinci Dünya müharibəsi iştirakçılarıdır. Sərəncama əsasən 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə 2500 manat məbləğində, İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1250 manat məbləğində birdəfəlik maddi yardım ayrılıb.

Birdəfəlik maddi yardımların verilməsi üçün dövlət başçısının Sərəncamı ilə Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Prezidentin ehtiyat fondundan 3,2 milyon manat vəsait ayrılıb. Birdəfəlik maddi yardımlar Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən İkinci Dünya müharibəsi iştirakçılarının və digər müvafiq şəxslərin bank hesablarına köçürülür.

Qeyd edək ki, 20 ildən artıqdır ki, İkinci Dünya müharibəsi iştirakçıları və yuxarıda vurğuladığımız kateqoriyalardan olan insanlar bu cür qayğı ilə əhatə olunurlar. 1941-1945-ci illər İkinci Dünya müharibəsində iştirak etmiş bəzi kateqoriyalardan olan şəxslərə Azərbaycan Respublikası Prezidentinin təqaüdünün artırılması, müharibə əlillərinin və onlara bərabər tutulan şəxslərin xüsusi avtonəqliyyatla təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında sərəncamlar bu kateqoriyadan olan insanlara göstərilən qayğının bariz nümunəsidir.

Ötən il oktyabr ayının 8-də Moskvada Müstəqil Dövlətlər Birliyi (MDB) Dövlət Başçıları Şurasının iclasında Prezident İlham Əliyev çıxışında İkinci Dünya müharibəsində qələbənin əldə olunmasında Azərbaycanın böyük rolunu bir daha faktlarla diqqətə çatdırdı: ...Bu gün MDB dövlət başçılarının İkinci Dünya müharibəsində Qələbənin 80 illiyi ilə bağlı müraciəti qəbul ediləcək. Azərbaycan ümumi qələbəmizə sanballı töhfə verib. Həmin dövrdə 3 milyon 400 min əhalisi olan Azərbaycandan cəbhəyə 700 minə yaxın insan yollanıb. Döyüş meydanlarında 350 min nəfər həlak olub, 130 azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına layiq görülüb. Müharibə illərində Azərbaycan neftçiləri cəbhəyə neft və neft məhsullarının 80 faizini, hərbi texnika üçün yağların 96 faizini tədarük edib. Bütün bunlar həmin dövrdə Azərbaycanda istehsal olunub, göstərilən məhsulların o vaxtlar SSRİ-də ümumi istehsalının faizidir. Azərbaycanda 130 növdən çox silah, sursat və texnika, o cümlədən məşhur "Katyuşalar", "Yak-3" qırıcıları istehsal edilirdi. Bakıda 41 hərbi hospital fəaliyyət göstərirdi, 440 min yaralı müalicə alırdı. 1942-ci ilin martında, həmçinin Taqanroq adı ilə tanınan 416-cı Azərbaycan atıcı diviziyasının döyüşçüləri and içdilər və Şimali Qafqazdan başlayan döyüş yolunu Berlində başa çatdırdılar. 416-cı Azərbaycan atıcı diviziyası 1945-ci il aprelin 21-də birincilər sırasında Berlinin girəcəyinə daxil oldu. Mayın 2-də diviziyanın döyüşçüləri polkovnik Rəşid Məcidovun komandanlığı altında Qələbə Bayrağını Brandenburq darvazası üzərinə sancdılar. Bizim 9 May ümumi Qələbəmiz MDB-yə üzv dövlətlərin gələcək əməkdaşlığının mühüm amilidir. Azərbaycan bu əməkdaşlığa böyük əhəmiyyət verir və bundan sonra da qarşılıqlı fəaliyyətimizin möhkəmləndirilməsi işinə öz töhfəsini verəcək.



## Onların xatirəsi xalqımız üçün əzizdir

Azərbaycan xalqı 1941-1945-ci illər müharibəsində şərəfli döyüş yolu keçmiş oğul və qızlarımızın tarixi şücaətini, habelə arxa cəbhədə fədakarlıqla çalışanların xidmətini heç vaxt unutmayacaq. Çünki bu beşillik zaman kəsiyi bütün acıları, ağrıları ilə yaşanıb. Minlərlə oğul və qızımız 1941-ci ildə müharibəyə yollanıb. Onlar arxada bir ailəni, həyat yoldaşını, nişanlı qızı, sevgilini buraxıb gediblər. Qayıdanlar sağlamlığını itirsə də, yenə də ata-ana, bacı-qardaş, həyat yoldaşı, övlad, sevgili hicranını vüsal edə biliblər. Qayıtmayanların isə arxada qoyduqlarına qovuşmaq hissi, ürəklərindəki min bir istək və arzu Rusiyanın ucsuz-bucaqsız torpaqlarına gömülüb. Nə arzular ürəklərdə dəfn olunub. Nə göz yaşları məktublarda saralıb, nə nisgillər kağız parçalarına tökülüb. Nə gözlər illərlə yollarda qalıb. Neçə-neçə analar hər qapı döyüləndə "bəlkə yoldaşımdır, oğlumdur, gəlib",- deyə qapıya yaxınlaşıb. Və ümidi elə oradaca yenidən qırılıb.

Axı biz müharibələr, acılar, itkilər görmüş bir xalqıq. Şəhidin, qazinin acısını yaşamış bir xalqıq. Belə isə eyni taleni yaşayan insanları unutmaq olarmı? 90-cı illərdə hakimiyyətdə olanlar sərsəmləsələr də, bunun Ulu Öndərimiz tərəfindən qarşısı alındı. Yoxsa bu gün bunun əzabını çəkərdik. Birinci və İkinci Vətən müharibələrində itirdiyimiz balalarımızı, qazilərimizi hər an ananda İkinci Dünya müharibəsinə gedib qayıtmayan minlərlə övladımızın taleyi ilə bağlı tarixin silinməsini özümüzə bağışlaya bilməyəcəkdik. Bu gün onlara qayğı ilə yanaşılması, anılması üçün Ümummilli Liderimizə borcluyuq. O, böyük bir tarixi sərsəmlərdən xilas etdi, qorudu. Odur ki, Ulu Öndər hər zaman Azərbaycan xalqının qəlbində yaşayacaq. Həm də böyük minnətdarlıq hissi ilə.

İkinci Dünya müharibəsində həlak olanların, yaralananların, zəhməti ilə kömək olanların həyat yolu bugünkü və gələcək nəsil üçün nümunədir. Elə bu nümunə ilə tərbiyə etdiyimiz gəncliyimiz milli ordu sıralarında 2020-ci ildə 44 günlük Vətən müharibəsində böyük vətənpərvərlik və fədakarlıq göstərdi. Vətəni qorumaq nümunəsi nümayiş etdirdi. 30 il işğal altında qalan Qarabağı və Şərqi Zəngəzuru düşməndən geri aldı, Azərbaycan bayrağını doğma yurd yerlərimizin, ata-baba ocaqlarının köksündə ucaltdı. Həmvətənlərimizin hər birindən isə İkinci Dünya müharibəsində arxa cəbhədə necə hünər göstərilmişdisə, bu müharibədə də onu gördük. Başqa cür ola da bilməzdi. Çünki bu, bizim zəngin mənəvi dəyərlərimizdən irəli gəlir. Hər bir tarixi isə yaşandığı üçün qorumaq gələcək nəsillərin borcudur. Bu gün həmin tarixi günləri anmaqla, xatırlamaqla, tədbirlər keçirməklə vətəndaş olaraq vəzifəmizi yerinə yetiririk. Həmişə də belə davam edəcəyik. Çünki onların hər birinin xatirəsi xalqımız üçün əzizdir.

***Mətanət Məmmədova***

# Azərbaycanın inkişaf strategiyasının müəllifi

***Müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin dövlətimiz və xalqımız qarşısında misilsiz xidmətləri çoxəsrlik tariximizin ən parlaq səhifələrini təşkil edir. Dahi şəxsiyyətin həyat və fəaliyyətinə nəzər salıdqda, bir daha şahidi oluruq ki, Onun bütün fəaliyyətinin əsasında xalqımızın parlaq gələcəyinin, qüdrətli bir dövlət kimi Azərbaycanın müstəqilliyinin əbədiliyinin təmin edilməsi dayanır.***




***Elçin Quliyev***
***Yeni Azərbaycan Partiyası***
***Nərimanov rayon təşkilatının sədri***

İnkaredilməz həqiqətdir ki, dövlət qurmaq, müstəqil yaşamaq bəşər tarixində heç də bütün xalqlara nəsib olmur. Hər bir dövlətin uğurları lider amilindən asılıdır. Dünya təcrübəsi də göstərir ki, böyük şəxsiyyətlərin ideyaları cəmiyyətdə baş verən hadisələrə çox ciddi təsir göstərir. Belə ki, Liderin dünyagörüşü, həyat təcrübəsi və siyasi iradəsi inkişaf strategiyasının əsas istiqamətlərinin müəyyənləşdirilməsində, ən çətin məqamlarda düzgün yolun seçilməsində öz sözünü deyir. Azərbaycan xalqı da xoşbəxt xalqdır ki, onun Heydər Əliyev kimi Ümummilli Lideri vardır. Heydər Əliyev Azərbaycanda müstəqil dövlətçiliyi yaradan və yaşadan şəxsiyyətdir.

Ulu Öndər Heydər Əliyevin gördüyü işlərin, xidmətlərinin miqyası o qədər genişdir ki, onları bir çıxışda, bi məqalədə, yaxud bir tədbirdə əhatə etmək mümkün deyil. Bugünkü Azərbaycan Ümummilli Liderin əmanətidir. Azərbaycanın müstəqilliyinin yenidən bərpasının ilk illərində yaşadıqları çoxəsrlik tariximizin faciəli səhifələri kimi hər zaman vərəqlənir. Azərbaycan o illərdə ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, idarəçilik qabiliyyətlərinin yoxluğu, öz şəxsi ambisiyalarını dövlət maraqlarından üstün tutmaları ucbatından müstəqilliyini itirmək, bir dövlət olaraq dünya xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə qalmışdı. Belə çətin bir zamanda Ulu Öndər Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı ilə Azərbaycanı yenidən qurdu. Azərbaycanın müstəqilliyini tarixi nailiyyətimiz kimi dəyərləndirən Ulu Öndər onun qorunmasını, möhkəmləndirilməsini qarşımızda əsas vəzifə kimi qoydu.

1993-cü ildən başlayaraq Azərbaycan uğurlu inkişaf yolu ilə gedir. Həmin vaxtdan ölkəmizdə sabitlik dövrü başladı, bütün sahələr üzrə mütərəqqi islahatlara start verildi. İlk gündən demokratik, hüquqi, sivil dövlət quruculuğu yolunu tutan Azərbaycanın bu istiqamətdə atdığı addımların uğurlu nəticələri göz önündədir. Hazırda Heydər Əliyevin müəyyənləşdirdiyi möhtəşəm inkişaf strategiyasının real nəticələrini görürük. Bu gün ölkəmiz təkmil sosial-iqtisadi siyasəti ilə dünyada ən islahatçı ölkələr sırasında yer alır. İqtisadi tərəqqi digər sahələrdə, o cümlədən ordu quruculuğu sahəsində mühüm addımların atılmasını şərtləndirdi.

Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı misilsiz xidmətlərindən biri də uğurlu dövlət quruculuğu prosesinin əsasının qoyulmasıdır. Bu sıraya təkmil siyasi sistemin, siyasi mədəniyyətin əsasının qoyulması, davamlı siyasi-hüquqi islahatların həyata keçirilməsi, həmçinin milli həmrəylik və bütövlüyü təmin edən ideologiyanın yaradılması aid edilə bilər. Eyni zamanda, həmin dövrdə hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin əhəmiyyətini də xüsusi vurğulamaq lazımdır. Bu, müstəqil Azərbaycanın demokratik inkişaf yolunda əmin addımlarla irəliləməsini təmin edən çox mühüm vasitə oldu. Ulu Öndər Heydər Əliyev bəhs olunan andiçmə mərasimində çıxışı zamanı qeyd etmişdi: "Müstəqil Azərbaycan Respublikasının qarşısında duran əsas vəzifələrdən biri respublikanın dövlət quruculuğu təşkil etməkdir. Bizim yolumuz aydındır, bunu dəfələrlə bəyan etmişik. Yolumuz demokratiya yoludur. Müstəqil Azərbaycanda demokratik, hüquqi dövlət qurulmalıdır. Azərbaycan dövləti demokratik prinsiplər əsasında fəaliyyət göstərməlidir, öz tarixi ənənələrindən, milli ənənələrindən bəhrələnərək, dünya demokratiyasından, ümumbəşəri dəyərlərdən səmərəli istifadə edərək demokratik dövlət quruculuğu yolu ilə getməlidir. Bizim yolumuz bu yoldur və mən sizə bir daha söz verirəm ki, biz məhz bu yolla gedəcəyik".

Beləliklə, Azərbaycan demokratik inkişaf yolunda uğurla irəlilədi, mühüm nailiyyətlər qazanıldı. Vurğuladığımız kimi, müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi, qarışıq seçki sistemi əsasında parlament seçkilərinin keçirilməsi, dövlətin hüquqi əsaslarının gücləndirilməsi, başqa sözlə, müasir dövlətçilik sisteminin bərqərar edilməsi üçün möhkəm hüquqi baza yaradıldı. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Bunlar isə öz növbəsində, siyasi sosiallaşmaya və siyasi mədəniyyətin inkişafına, ümumilikdə, ictimai-siyasi institutların səmərəli fəaliyyətinə yol açdı. Bir sözlə, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanan milli inkişaf strategiyasının fonunda həyata keçirilən sistematik işlər və görülən məqsədyönlü tədbirlər siyasi sistemin təşəkkül tapmasını, onun struktur elementlərinin mütəmadi təkmilləşməsini təmin etmiş oldu. Öz fəaliyyətini Azərbaycanın hərtərəfli inkişafına həsr edən Ulu Öndər, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində növbəti addımlarını atdı. Məhkəmə islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin, Ombudsman təsisatının və digər mühüm institutların yaradılması, ölüm hökmünün ləğv edilməsi kimi islahat xarakterli addımlar ölkədə demokratikləşmə prosesinin irəliyə aparılmasında mühüm rol oynadı. Milli ideologiyanın yaradılması da Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən dövlət quruculuğu siyasətinin mühüm tərkib hissələrindən biridir. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin müəllifi olduğu azərbaycançılıq ideologiyası təkcə bu dövlətin ərazisində yaşayan şəxsləri yox, eyni zamanda, bütün dünyada məskunlaşan azərbaycanlıları əhatə edən, dünya azərbaycanlılarını vahid mərkəzdə birləşdirən milli məfkurəyə çevrildi. Şübhəsiz, Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu dövlət quruculuğu siyasətinin fonunda əldə edilən nailiyyətlərin sayını istənilən qədər artırmaq olar. Amma təkcə sadalananlar da onu deməyə əsas verir ki, Ulu Öndər Heydər Əliyev Azərbaycanı, sözün əsl mənasında, müstəqil ölkəyə çevirdi, müstəqilliyimizi daimi və dönməz etdi.

Onu da xüsusi vurğulamalıyıq ki, müstəqilliyimizin, suverenliyimizin qarantı olan Silahlı Qüvvələrimizin maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində atılan addımların, formalaşan möhkəm təməlin nəticəsidir ki, Azərbaycan Ordusu bu gün dünyanın ən güclü 50 ordusu sırasında qərarlaşıb. Ən əsası Silahlı Qüvvələrimiz Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə 44 günlük İkinci Qarabağ müharibəsində tarixi Zəfərə imza atdı, ərazi bütövlüyümüzü və tarixi ədaləti bərpa etdi. Dünya Azərbaycan Ordusunun nəyə qadir olduğunun şahidinə çevrildi.

Bu günümüzün uğurlarının zirvəsində dayanan tarixi Zəfərimiz Azərbaycanın 1993-cü ildən başladığı inkişaf yolunun təqdimatıdır. Beləliklə, Heydər Əliyev yolu tarixi Zəfərimizin əsasını təşkil edir. Bu şanlı Qələbə Azərbaycanın iqtisadi və siyasi gücünü, milli birliyini bir daha nümayiş etdirdi. Azərbaycan dövləti ötən illər ərzində torpaqlarımızın işğaldan azad edilməsi üçün səbrlə hazırlıq işləri apardı və istəyinə nail oldu. Bu gün böyük qürur hissi ilə qeyd edirik ki, Ümummilli Lider Heydər Əliyev adını tarixə müstəqilliyimizin, Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev isə Qarabağımızın xilaskarı kimi qızıl hərflərlə yazdılar. Bu, Azərbaycan xalqının xoşbəxtliyidir. Artıq azad Qarabağımız və Şərqi Zəngəzurumuz dirçəlir.

Bu gün müstəqil Azərbaycan Heydər Əliyev siyasətinin layiqli davamçısı cənab Prezident İlham Əliyevin rəhbərliyi ilə gələcəyə doğru inamla, yeni zəfərlərlə addımlayır. Bu gün hər birimiz dərk edirik ki, müstəqil Azərbaycan dövləti bütün həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevin şah əsəridir. Şübhə yoxdur ki, xalqımız bu əsərin müəllifini özünün tarixində və qəlbində əbədi yaşadacaq, Azərbaycan və Heydər Əliyevin adı əsrlər boyu bütün dünyada qoşa səslənəcək. Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, yeni-yeni zəfərlər qazanacaq!

# Azərbaycan oğulları İkinci Dünya müharibəsinin qəhrəmanlarıdır

## Rusiyada hazırlanan "pamyat-naroda.ru" saytı isə Azərbaycana qarşı qərəz nümayiş etdirib

***Dünya yaranandan mala-mülkə, insan əsarətinə, torpaq ilhaqına susamış baş cəlladlar fitnə-fəsadla müharibələr törətmişlər. Nəticədə yüz minlərlə insan müharibələrin qurbanı olmuş, minlərlə şəhər, kənd və qəsəbələr dağdılaraq məhv edilib. Yəqin ki, bundan sonra da müharibələrdən qaçmaq mümkün olmayacaq. Albert Eynşteyn deyirdi ki, super gücə malik hegemon dövlətlər olduqca, müharibələr həmişə olacaqdır.***

Bəşər tarixində ən qanlı savaş kimi tarixə düşən İkinci Dünya müharibəsindən çox yazılıb, danışılıb, bədii və sənədli filmlər çəkilib. Amma hələ də çox suallara, bir çox mətləblərə tam aydınlıq gətirilməyib. Yeganə aydın olan məsələ ondan ibarətdir ki, 20-ci əsrdə iki dəfə baş vermiş dünya müharibələrinin ideya müəllifi Almaniya olub. 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya hücum etməsi ilə İkinci Dünya müharibəsi başlamışdır. 6 il davam edən müharibədə 70-ə yaxın dövlət və 1,7 milyarad insan iştirak etmişdir. Ümumilikdə, 40 ölkəni əhatə edən bu müharibədə 70 milyona yaxın insan həyatını itirib ki, onun da 30 milyonu SSRİ vətəndaşları olub. Ölkəmiz müharibə meydanına çevrilməsə də, neftlə zəngin Bakı nefti ozamankı hegemon və iddialı dövlətlərin paytaxtlarında siyasi rəhbərliklər tərəfindən müzakirə olunan mövzulardan olub. Faşist Almaniyasının füreri Adolf Hitler SSRİ şəklində hazırlanmış ad günü tortunun "Bakı hissəsi"ni kəsib yediyi də kinokadrlardan və fotolardan məlumdur. Hitler Bakı neftini ələ keçirməklə İran körfəzinə və Hind okeanına hərəkət etmək, eləcə də, SSRİ-nin yanacaq tədarükünü tamamilə sıradan çıxarmaq niyyətində idi.

Arzuların reallaşdırılması üçün A.Hitler Bakının sənaye və hərbi əhəmiyyətli obyektlərinin xəritəsi hazırlanmış və "Edelveys" hərbi planı hazırlamışdır. Ümumiyyətlə, təbii sərvətlərə, eləcə də, strateji-coğrafi mövqeyə malik olan Azərbaycan o dövrdə Hitlerlə yanaşı, digər aparıcı dövlətlərin maraq dairəsində əhəmiyyətli yerlərdən birini tutmuşdur. Hətta Böyük Britaniya və Fransa "Piker" planına əsasən, 1940-cı il may ayının sonlarında Bakının neft mədənlərini bombalamaq planları vardı ki, əgər bu baş versəydi, Bakı şəhəri tamamilə alova bürünmüş olardı. Lakin 1940-cı ilin mayın 10-da Almaniyanın Fransanı işğal etməsi və davamlı olaraq, Böyük Britaniyanı bombalaması "Piker" planının iflasa uğramasına gətirib çıxardı. Azərbaycanın paytaxtı yanmaqdan xilas olmaqla, öz nefti və igid, qəhrəman övladları ilə İkinci Dünya müharibəsinin hər bir döyüş gedən bölgəsində, cığırında od-alov olub, yandırdı, adı-sanı ilə dillər əzbərinə çevrildi. O zaman SSRİ neftinin 70-75 faizini, benzinin 85-90 faizini Bakı verirdi. Motorlu hərbi texnika, demək olar ki, Bakı yanacağı ilə işləyirdi. 1941-1945-ci illərdə Bakıdan cəbhəyə 75 milyon ton neft, 22 milyon ton benzin göndərilmişdi.

Azərbaycan oğulları Moskvanın müdafiəsində, Stalinqradın, Leninqradın, Ukraynanın, Belarusiyanın, Polşanın, Çexoslovakiyanın, Rumıniyanın, Macarıstanın, Yuqoslaviyanın, Bolqarıstanın, Macarıstanın, Rumıniyanın azad edilməsində, Brest qalasının alınmasında, bayrağın Reyxin binasına sancılmasında böyük şücaət göstərmişlər. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev bu barədə demişdir: "Faşizm üzərində qələbənin qazanılmasında Azərbaycan xalqı da öz sanballı töhfəsini vermişdir. Rusiya, Ukrayna, Moldova və Belarusun, Baltikyanı respublikaların, Şərqi Avropa ölkələrinin hitlerçilərdən azad edilməsində, Qərbi Avropada genişlənən müqavimət hərəkatının uğur qazanmasında həmyerlilərimiz mühüm rol oynamışlar".

### Müharibə illərində Azərbaycandan cəbhəyə 700 minə yaxın döyüşçü göndərilib

İkinci Dünya müharibəsi illərində Azərbaycandan cəbhəyə 700 minə yaxın döyüşçü




göndərilmişdi ki, onların da 350 mindən çoxu həlak olmuş və itkin düşmüşdü. Böyük Vətən Müharibəsində Azərbaycanın qəhrəman övladları çoxsaylı igidliklər göstərmiş və adlarını hərb tarixinə müharibə qəhrəmanları kimi yazdırmışlar. Müharibədə 121 nəfər azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı adına, 34 nəfər "Şöhrə" ordeninin hər üç dərəcəsinə layiq görülmüşdür. Minlərlə soydaşımız SSRİ-nin digər orden və medalları ilə təltif olunmuşlar. Həzi Aslanovun, Mehdi Hüseynzadənin, Hüseynbala Əliyevin, İsrafil Məmmədovun, Ziya Bünyadovun, Qəzənfər Əkbərovun, Bəhyəddin Mirzəyevin, Yusif Sadıxovun, Qafur Məmmədovun, Baloğlan Abbasovun və başqalarının igidlikləri dillər əzbəri olub. General Şarl-De Qollun rəhbərlik etdiyi Fransa Müqavimət Hərəkatının qəhrəman döyüşçüsü, Xarqo təxəllüsü ilə tanınan Əhmədiyyə Cəbrayılov Fransanın Milli Qəhrəmanı adına, dövlət bayrağından irəli getmək şərəfinə layiq görülmüşdür. Ümumilikdə, Fransanın müdafiəsində 3 min azərbaycanlı döyüşçü vuruşmuşdur. Bütün bunlara baxmayaraq, Azərbaycanın faşizm üzərində qələbəyə verdiyi töhfələr Sovet İttifaqının başbilənləri tərəfindən lazımınca qiymətləndirilməmişdir. Qələbənin əldə olunmasında müstəsna rol oynamış Bakı şəhərinə "qəhrəman şəhər" adının verilməsinə də xəsisliklə yanaşmışlar. Təəssüf ki, bu qısqanc münasibət Stalin rejimini əvəz etmiş digər SSRİ rəhbərliyi tərəfindən də davam etdirilmiş və bu gün də öz aktuallığını saxlamaqdadır. Sual yarana bilər: bu gün niyə, SSRİ artıq yoxdur? Bəli, artıq SSRİ yoxdur, amma onun varisi iddiasında çıxış edən Rusiya var. Rəsmi Moskva səhvlərin təkrarlanması önündə getmədiyini nümayiş etdirmək istəyirsə, gec də olsa, Bakıya "qəhrəman şəhər" adının verilməsi barədə, Dövlət Duması səviyyəsində qərar verə bilər. Belə bir təcrübə var, Rusiyanın bəzi şəhərlərinə adlar və ayrı-ayrı müharibə iştirakçılarına ali orden və medallar təqdim olunub.

### "Pamyat-naroda.ru" saytında Rusiya tərəfi faşistlərə nökərçilik etmiş Ermənıstan fərarilərinə daha çox yer ayırır

Hər il 9 may günü, Rusiya SSRİ-nin varisi olduğunu iddia edərək qələbə paradı keçirir. Bu ölkə müxtəlif tədbirlər də reallaşdırır. Həmin layihələrdən biri də İkinci Dünya müharibəsinin iştirakçıları haqqında saytın yaradılmasıdır. İlk baxışdan, bunu xoşməramlı addım kimi dəyərləndirmək olar. Yetər ki, heç olmasa bu məsələdə ədalət prinsipi qorunsaydı. Ancaq "pamyat-naroda.ru" saytı adlandırılan Rusiyanın layihəsində, faşizm üzərində qələbənin əldə olunmasında öz canlarını qurban vermiş, sağlamlığını itirmiş, ömürlük şikəst olmuş, arxa cəbhədə "Hər şey cəbhə üçün, hər şey qələbə üçün" deyib, az qala 20 saat işləmiş, çalışmış azərbaycanlılar haqqında məlumatlar tam şəkildə yerləşdirilməyib. Adları qeyd olunan azərbaycanlı müharibə qəhrəmanları haqqında məlumatlar isə səthi verilib, yəni dolğun, ətraflı informasiya əks olunmayıb. Ermənilər barədə isə daha geniş məlumatlara rast gəlinir. Halbuki Ermənistandan cəbhəyə 120 min döyüşçü göndərilib ki, onun da 80 minə yaxını müharibənin gedişində fərarilik edib və ya könüllü şəkildə almanlara əsir düşüb. Hətta Njde Qaregin adlı erməni faşistlər tərəfindən sovet əsgər və zabitlərinə qarşı savaş aparıb. N.Qaregin yüzlərlə sovet insanının qətlə yetirilməsində şəxsən iştirak edib. Deyilənlərə və yazılanlara görə, hazırkı Rusiya rəhbərlərinin yaxınlarının, o cümlədən prezident Vladimir Putinin babası da N.Qaregin tərəfindən öldürülüb. Ancaq Rusiya rəhbərliyi faşistlərə nökərçilik etmiş N.Qaregínə Yeravanda abidə ucaldılmasına etiraz səslərini qaldırmadılar. Hətta bəzi məsələlərdə, o cümlədən İkinci Dünya müharibəsi qəhrəmanları haqqında yaradılan "Pamyat-naroda.ru" saytında Rusiya tərəfi faşistlərə nökərçilik etmiş Ermənistan fərarilərinə daha çox yer ayırır. Bu halda nə etməli, təbii ki, özümüzün saytımızı yaratmalıyıq. Amma təəssüflər olsun ki, nəinki İkinci Dünya müharibəsinin döyüşçülərilə bağlı, heç Stalin rejiminin repressiya maşınının qurbanı olmuş şəxslər haqqında sayt yaratmağa təşəbbüs göstəmirik.

İkinci Dünya müharibəsinin iştirakçısı olmuş azərbaycanlı döyüşçülər və arxa cəbhədə fədakarlıq göstərmiş zəhmətkeş insanlarımızla bağlı, eləcə də, 1937-ci il repressiya qurbanlarının həyat və fəaliyyətləri haqqında sayt yarada bilərik. Belə bir saytın yaradılması, yetişməkdə olan gənc nəslin təlim-tərbiyəsinə, vətənpərvərlik ruhunda böyüməsinə çox müsbət təsiri olar. Ən azı, müharibə qəhrəmanlarının unudulmadığını və onların bizim üçün əziz olduğunu göstərə bilərik.

Millət vəkili Musa Qasımlı bizimlə söhbətində bildirdi ki, faşizm üzərində qələbənin əldə olunmasında Azərbaycanın böyük rolu olub: "İkinci Dünya Müharibəsi illərində Azərbaycandan cəbhəyə 600 mindən çox insan səfərbər olunub ki, onlardan da 500 mini döyüşən ordu sıralarında vuruşub və ya partizan hərəkatında fəaliyyət göstəriblər. Arxa cəbhədə, cəbhə üçün çalışan on minlərlə insanlarımız olub. Ona görə də, Rusiyada İkinci Dünya Müharibəsi döyüşçüləri haqqında sayt hazırlayanlar, ilk olaraq, döyüşçü siyahılarının dəqiqləşdirilməsi üçün Azərbaycanın müvafiq qurumlarına müraciət etməli idilər".

M.Qasımlı QHT-lərin repressiya qurbanlarının saytının yaradılması məsələsini öz üzərlərinə götürmələrinin daha məqsədəuyğun ola biləcəyini söylədi: "Saytın hazırlanması üçün QHT-lər, müvafiq dövlət qurumları ilə əməkdaşlıq etməklə, repressiya qurbanları ilə bağlı saytın yaradılmasına nail ola bilərlər".

### "Pamyat-naroda.ru" saytında ayrı-seçkiliyə yol verilməsi ciddi qüsur və nöqsandır"

Tarixçi-alim Firdovsiyyə Əhmədova isə bizimlə söhbətində "pamyat-naroda.ru" saytında azərbaycanlı döyüşçülərin adlarının tam salınmaması məsələsinin aydınlaşdırılmasına zərurət olduğunu bildirdi: "Ümumilkdə, saytda ayrı-seçkiliyə yol verilməsi ciddi qüsur və nöqsandır. Faşizm üzərində qələbənin qazanılmasında bütün İttifaq respublikalarının rolu olub. Qələbənin əldə olunmasında bir millətin və bir respublikanın adının çəkilməsi ədalətsizlikdir. Beynəlxalq tədbirlərdə, yalnız Rusiya deyil, qələbənin qazanılmasında rolu olan keçmiş SSRİ-nin bütün respublika rəhbərliyi iştirak etməlidir. Azərbaycan qələbənin qazanılmasına sərvəti, həm də canlı qüvvəsi ilə mühüm töhfələr verib. Respublikamızdan cəbhəyə 600 mindən çox insan gedib ki, onlarda da 300 mini həyatlarını itirib, itkin düşüb və ya yaralanıb. Minlərlə azərbaycanlı Sovet İttifaqı Qəhrəmanı, Lenin ordeni və digər medallarla təltif olunublar. Bir sözlə, müharibənin qələbə ilə başa çatmasında Azərbaycanın əhəmiyyətli rolu olub. Bu baxımdan, İkinci Dünya Müharibəsinin döyüşçülərilə bağlı "pamyat-naroda.ru" saytını hazırlayanlar azərbaycanlı döyüşçülərin adlarının sayta daxil edilməsinə xüsusi diqqət ayırmalı idilər" .

Tarixçi-alim Azərbaycanın repressiya qurbanları ilə bağlı saytın yaradılmasının aktual məsələlərdən olduğunu bildirdi: "1937-ci il repressiya qurbanları ilə bağlı saytın yaradılması vacib və əhəmiyyətlidir. Çünki repressiya qurbanları haqqında məlumatları repressiyadan əziyyət çəkmiş ailələr və tarixçilər deyil, bütün ölkə vətəndaşları məlumatlı olmalıdır. Bu məlumatları isə, yalnız hazırlanacaq sayt vasitəsi ilə əldə etmək olar".

Bir sözlə, göründüyü kimi, Rusiyanın İkinci Dünya müharibəsinin iştirakçıları haqqında yaratdığı saytda azərbaycanlı döyüşçülərə xəsisliklə yer ayrılması Kremlin qaranlıq dairələrinin ölkəmizə qarşı tarixə ədalətsiz yanaşmasının bu gün də davam etdiyini göstərir. Amma real bir həqiqət var, tarixi gerçəkliyi ört-basdır etməyə cəhd etmək, karlara, korlara və nadanlara məxsusdur. Azərbaycanlı döyüşçülər mərdlikləri, qorxmazlıqları və igidlikləri ilə İkinci Dünya müharibəsinin gedişini dəyişməyə müvəffəq olublar. Bəlkə də Azərbaycan xalqının, azərbaycanlı döyüşçülərin fədakarlığı, qəhrəmanlığı olmasa idi, müharibənin nəticəsi başqa cür olardı. Bunu ekspertlərin də dediyi kimi, yalnız Rusiya deyil, bütün demokratik düşüncəli dünya xalqları bilməmiş deyil. Ona görə də, Rusiya, eləcə də Avropa dövlətləri faşizmin məhv edilməsinə görə Azərbaycana minnətdar olmalıdır.

**İLHAM ƏLİYEV**

# Qarabağın tacı Şuşanın dünəni və bu günü




2020-ci ilin noyabrın 8-də 28 illik həsrətdən sonra Azərbaycan xalqı üçün böyük əhəmiyyət kəsb edən və rəmzi məna daşıyan Şuşa şəhəri işğaldan azad edildi. "Əziz Şuşa, sən azadsan! Əziz Şuşa, biz qayıtmışıq! Əziz Şuşa, biz səni dirçəldəcəyik! Şuşa bizimdir! Qarabağ bizimdir! Qarabağ Azərbaycandır!", - deyən Azərbaycan Prezident İlham Əliyevin rəhbərdiyi ilə Azərbaycan ordusu bütün dünyaya bizim qalib, yenilməz, məğrur xalq olduğumuzu göstərə bildi. Şuşa şəhərinin işğaldan azad olunması Azərbaycanın hərbi-diplomatik uğurlarının təzahürüdür. Qarabağın incisi hesab olunan Şuşa şəhərinin rəşadətli Ordumuz tərəfindən işğaldan azad edilməsi əlbəttə ki, müharibənin sonrakı gedişinə həlledici təsir göstərərək Zəfər Günü kimi tariximizə yazıldı. Ali Baş Komandan İlham Əliyevin qətiyyətli və prinsipial mövqeyi hərb meydanında olduğu kimi, diplomatiya meydanında da uğurlarımızı şərtləndirdi. Düşmənin ağ bayraq qaldırmaqdan başqa çıxış yolu yox idi. Dövlət başçısı tərəfindən Şuşa sevincini yaşadıqdan sonra, noyabrın 9-da Prezident İlham Əliyev 71 kəndin, bir qəsəbənin və 8 strateji yeksəkliyin işğaldan azad edildiyi barədə ölkə ictimaiyyətini məlumatlandırdı.

Ölkə başçısı Cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu 30 il müddətində davam edən işğala cəmi 44 gün müddətində son qoymağı bacardı, Ermənistanı diz çökdürdü, təslim olmağa məhkum etdi. Bu tarixi qələbə Azərbaycan tarixinə məğlubedilməzlik kimi həkk olundu. Ali Baş Komandan İlham Əliyev ən yeni tariximizə Zəfər Sərkərdəsi kimi möhrünü vurdu.

Bu gün Şuşa bu gün yeni bir dövrünə qədəm qoyub. Böyük Qayıdış üçün lazımı tədbirlər həyata keçirilir və burada reallaşdırılan infrastruktur layihələr və tədbirlər bir daha sübut edir ki, müqəddəs şəhər yenidən dirçəlir, inkişaf edir, geniş abadlıq və quruculuq meydanına çevrilib. 28 ilə yaxın bir tarixdə erməni işğalında qalan Şuşamız azad olundu. Əsrlərdən səsi eşidilən, hər zaman toy-büsatlı olan Şuşamız tarixin dönəmlərində çox hücumlara məruz qalsa da, başını dik tutub, əyilməz, məğlubedilməz olub. Çox gözlər dikilib bu diyara. Hər daşında bir tarix yaşar, bir tarix danışılar. 28 il erməni işğalı altında qalan Şuşamız bu gün azad nəfəs alır. 2021-ci il mayın 7-də Prezident İlham Əliyev Şuşa şəhərinin Azərbaycanın Mədəniyyət Paytaxtı elan edilməsi haqqında Sərəncamı bu şəhərin böyük mədəniyyət beşiyi olduğunu bir daha təsdiqlədi.

"Qafqazın sənət məbədi", "Azərbaycan musiqisinin beşiyi" və "Şərqin konservatoriyası" adlandırılan Şuşadan gələn səslərdə böyük bir dünyadan söz açılır. Kimlərin səsi, ünü gəlmir bu diyardan? Mir Möhsün Nəvvab, Baba bəy Şakir, İsgəndər bəy Rüstəmbəyov daha kimilər Şuşa bulağından su içib. Xüsusi olaraq qeyd edək ki. Şuşada təkcə XIX əsrdə 95 şair, 22 musiqişünas, 58 xanəndə, 12 nüsxabənd, 19 xəttat, 16 nəqqaş, 8 memar, 5 astronom, 16 həkim, 42-yə qədər müəllim və s. olmuşdur. Şuşanın işğalı nəticəsində azərbaycanlıların tarixi izlərini silmək məqsədilə vandallar 600 yaxın tarixi memarlıq abidəsini, o cümlədən Pənahəli xanın sarayını, Yuxarı Gövhər ağa məscidini, Aşağı Gövhər ağa məscidini, Xurşidbanu Natəvanın evini, Molla Pənah Vaqifin məqbərəsini yerlə-yeksan etmiş, 7 məktəbəqədər uşaq müəssisəsini, 22 ümumtəhsil məktəbini, mədəni-maarif, kənd təsərrüfatı texnikumlarını, orta ixtisas musiqi məktəbini, 8 mədəniyyət evini, 22 klubu, 31 kitabxananı, 2 kinoteatrı, 8 muzeyi, o cümlədən Şuşa Tarix Muzeyi, Azərbaycan Xalça Muzeyinin filialı və xalq tətbiqi sənəti muzeyi, Qafqazda yeganə olan Şərq musiqi alətləri fabrikini dağıtmış, buradakı nadir sənət incilərini talamış və məhv etmişlər. Belə bir əməl sahibi olmaq əlbəttə ki, onların iç dünyasından yağan bir ideologiyanı göstərir - faşist ideologiyasını. Belə vandallıq əməllərinin müəllifi olanlara nə ad vermək olar? Hərdən susursan da, söz tapa bilməyəndə. Üzeyirlər, Bülbüllər yetirən torpağın səsini-sədasını kömürmək qeyri-mükündür. Çünki hər daşının yaddaşı bizi qeybdən gələn səslərə yaxınlaşdırır. Tarixin dönəmlərində Şuşamızın hər yerindən xalq ruhunu əks etdirən musiqi sədaları eşidilib. Şuşada, Cıdır düzündə festivallar, tədbirlər keçirilib, xalqın ruhu, istəyi öz ifadəsini tapıb. Bu şəhərin Azərbaycan mədəniyyət tarixində özünəməxsus yeri və rolu var.

## ZƏFƏR QAZANAN XALQIN BEYNƏLXALQ FESTİVALLARI DA MÖHTƏŞƏM OLUR

Fəsillərin hər birində özünəməxsus gözəlliyə qərq olan Şuşamız baharın göz oxşayan ətirli çiçəklərinin ahəngində musiqili dünyası ilə yenidən dünyanın müxtəlif yerlərindən qonağı olan insanlara isti nəfəsli qucağını açdı. Toy-büsatlı Qarabağımızın incisi "Xarıbülbül"ün sədası ilə dağları, daşları aşaraq, yenidən xoş ovqatını dünyaya yaydı. Xalqın milli və klassik musiqisi dağları-dərələri aşdı. Bundan qürurverici nə ola bilərdi? Vaqif Poeziya Günləri sözümüzün, şeirimizin, ədəbiyyatımızın bayramına çevrildi. Bildiyimiz kimi, Şuşa şəhəri 2023-cü ildə həm də Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı (TÜRKSOY) tərəfindən "Türk dünyasının mədəniyyət paytaxtı" elan edilmişdi. "Xarıbülbül" Beynəlxalq Musiqi Festivalında da TÜRKSOY-a daxil olan ölkələr, regionun türkdilli ölkələri və xalqlarının yaradıcı kollektivləri iştirak etdilər. Xoş əhvali-ruhiyyəli bu musiqi bayramı bir daha dünyanın nəzər nöqtəsində oldu. Bir daha sərgilədi ki, müharibəni qalibiyyətlə başa vuran bir xalqın beynəlxalq festivalları da möhtəşəm olur.

Uzun illərdən sonra yenidən Şuşada, Cıdır düzündə "Xarıbülbül" musiqi festivalının keçirilməsi bir daha dünyaya göstərdi ki, işğaldan azad olunan torpaqlarımız əzəli sakinlərini qoynuna alanda belə əzəmətli, möhtəşəm olur. Bu xalqın övladları kimi, onun gülüçiçəyi də, atları da vəfalıdır. Artıq neçə ildir ki, Xarıbülbülümüzün ətri dünyaya öz ətrində yayılır. Bu qoxu ondan duyulan VƏTƏN qoxusudur. Şuşamızın qoxusudur. Bu ətri duya biləcək insanlar Vətən anlayışının nə demək olduğunu anlayanlardır. Hər bir azərbaycanlının qüruruna çevrilən "Xarıbülbül" Beynəlxalq musiqi festivalı! Musiqi beşiyi, musiqi məbədi olan Şuşada belə bir tədbirin keçirilməsi hər birimizin müqəddəs arzusu, istəyi idi ki, bu gerçəkliyə çevrildi. Azərbaycan Prezidenti İlham Əliyev çıxışlarının birində bildirmişdir: "Biz öz dini, milli, mənəvi köklərimizə bağlı olan xalqıq. Əks-təqdirdə, biz heç vaxt işğala son qoya bilməzdik. Biz bütün bu illər ərzində bir amalla yaşamışıq - torpaqları azad edək, ədaləti bərpa edək, milli ləyaqətimizi qoruyaq və buna nail olduq".

"Xarıbülbül" Beynəlxalq Festivalında Şuşanın qoynunda ifa olunan milli musiqimizin sədalarının Şuşa dağlarına yayılması əlbəttə ki, böyük bir sevgimizin izharıdır. Şuşada ilk dəfə "Natəvan" operasının təqdimi böyük bir məna kəsb etmiş oldu. Qarabağ xanının qızı, Azərbaycan şairi Xurşidbanu Natəvanın həyat və yaradıcılığına, o dövrdə Qarabağda baş verən ictimai-siyasi hadisələrə həsr olunan opera Şuşada ilk dəfə nümayiş olundu.

## İDEOLOJİ MƏRKƏZƏ ÇEVRİLƏN ŞUŞA

15 iyun 2021-ci ildə "Azərbaycan Respublikası ilə Türkiyə Cumhuriyyəti arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması iki ölkə arasında münasibətlərin yeni mərhələyə qədəm qoyduğunun təzahürüdür. İdeoloji mərkəzə çevrilən Şuşada imzalanan Müttəfiqlik haqqında Bəyannamə dost ölkələr arasındakı əlaqələri daha yüksək zirvəyə qaldırdı. Eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir sıra qarşılıqlı bağlara malik olan xalqlar bütün zamanlarda bir-birinə dəstək olublar və bu gün də belədir. Təbii ki, iki qardaş, dost ölkə olan Azərbaycan və Türkiyənin təşəbbüsü ilə ölkələrimiz, eləcə də bölgə üçün önəmli layihələr reallaşır. Türk dünyasının qədim mədəniyyət beşiyi olan Şuşa şəhərində imzalanan Şuşa Bəyannaməsi iki dost və qardaş ölkə arasında 13 oktyabr 1921-ci il tarixli Qars müqaviləsinə, eləcə də Dostluq və Əməkdaşlıq haqqında Müqaviləyə, Strateji Tərəfdaşlıq və Qarşılıqlı Yardım haqqında müqaviləyə əsaslanır.

## "BUNDAN SONRA BİZ ŞUŞADA ƏBƏDİ YAŞAYACAĞIQ"

Bu gün Şuşada görülən işlərin miqyası çoxdur. Hər daşı, hər abidəsi yenidən qurulur. Zəfər qazanan xalq hər qarış torpağına, məhz ruhuna uyğun olaraq nəfəs verir. Axı bu günü illərdir ki, gözləyirdik. Gözləyirdik ki, bizim yolumuzu gözləyən torpaqlarımıza nəfəs qataq. Əlimizlə, zəhmətimizlə, səsimizlə, addımlarımızla. Bu gün bizlərə nəsib oldu. Azərbaycanın mədəniyyət paytaxtı elan edilən Şuşa şəhərində Azərbaycan Respublikası Prezidentinin tapşırığına əsasən və dövlət başçısının bilavasitə nəzarəti altında qədim tarixi və memarlıq üslubu qorunub saxlanılmaqla Şuşa şəhərinin, tarixi və dini abidələrin, muzeylərin planlı şəkildə bərpa olunması istiqamətində məqsədyönlü tədbirlər həyata keçirilir. Şuşada Gövhərağa məscidinin bərpası Azərbaycanın öz dəyələrinə milli-mənəvi islami dəyərlərinə olan ehtiramın nümunəsidir. Dövlət başçısının bildirdiyi kimi, "Bundan sonra biz Şuşada əbədi yaşayacağıq və Şuşanın bərpa edilməsi artıq başlanmışdır. Verilən göstərişlər yerinə yetirilir".

Prezident İlham Əliyev hələ Vətən müharibəsindən öncə qeyd etmişdi ki, ərazi bütövlüyümüz bərpa edildikdən sonra Üzeyir Hacıbəylinin, Natəvanın, Bülbülün büstləri Şuşaya qaytarılacaq. Azərbaycan Prezidentinin bu sözləri artıq reallığa çevrildi. Həmin dahi şəxsiyyətlərin büstləri Şuşada yenidən əvvəlki yerlərində bu qədim Azərbaycan şəhərinə gələn qonaqları salamlayır. Bu gün Üzeyir Hacıbəylinin, Xurşidbanu Natəvanın, Bülbülün Şuşadakı büstləri öz məkanlarında rahat nəfəs alır.

## "ŞUŞA 28 İL YARIM ƏSARƏTDƏ İDİ, ANCAQ ƏYİLMƏDİ, SINMADI, ÖZ LƏYAQƏTİNİ QORUDU, MİLLİ RUHUNU QORUDU, AZƏRBAYCAN RUHUNU QORUDU"

Bu gün Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi ilə Şuşada abadlıq-quruculuq işləri geniş vüsət alıb. Ermənilərin xarabalığa çevirdiyi məkanlarda yeni yollar çəkilir, dayanıqlı və davamlı iqtisadi fəallığın təmin edilməsinə yönəldilən infrastruktur layihələri reallaşır, tarixi-mədəniyyət və dini abidələrimiz təmir və bərpa olunur. Su, qaz, elektrik təsərrüfatlarının bərpası ilə bağlı işlər uğurla davam etdirilir.

Bildiyimiz kimi, Heydər Əliyev Fondunun Qarabağdakı bərpa layihələrinin bir hissəsi isə Azərbaycanın mədəniyyət paytaxtı Şuşa şəhərində həyata keçirilir. Bunların sırasına dahi Azərbaycan şairi və ictimai xadim Molla Pənah Vaqifin muzey-məqbərə kompleksinin, Vaqifin büstünün yenidən qurulması, görkəmli bəstəkar Üzeyir Hacıbəylinin heykəlinin Şuşada yenidən ucaldılması və digərləri daxildir. Bütün bunlarla yanaşı, Şuşada Yaradıcılıq Mərkəzinin Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işlərindən sonra açılışı olub. Şuşa şəhərindəki Yaradıcılıq Mərkəzinin hazırkı binası ölkə əhəmiyyətli memarlıq abidəsi siyahısındadır. Binada vaxtilə Ağa Qəhrəman Mirsiyab oğlunun Karvansarası yerləşib. Heydər Əliyev Fondu tərəfindən aparılan bərpa işləri zamanı bina ilkin vəziyyətinə qaytarılıb.

Görülən və görüləcək bütün işlər bunlarla bitmir. Azad Şuşamız müasir bir məkana çevrilir. Şuşada Yuxarı Gövhər Ağa məscidinin yenidənqurma və bərpa işlərindən sonra açılışı, Saatlı məscidinin və Milli Xalça Muzeyinin Şuşa filialının açılışları və s. Şuşanın yenidən qurulmasının təzahürüdür. Şuşa yaşayır və qaynar, yeni dövrünə qədəm qoyub. Bir çox əlamətdar hadisələrə şahidlik edən Şuşamız tarixi günlərini yaşayır. Bütün bu və ya digər tarix, mədəniyyət abidələrinin təmir və bərpası ilə yanaşı, dövlət başçısı tərəfindən Şuşada 17 binadan ibarət 2-ci yaşayış kompleksinin də təməli qoyulub. Şuşa şəhərinin Baş planına uyğun olaraq, D4 zonasında 4,25 hektar ərazidə inşa ediləcək kompleksdə ikimərtəbəli və üçmərtəbəli binalar tikilir. Cənab Prezident çıxışlarını birində "Şuşa 28 il yarım əsarətdə idi, ancaq əyilmədi, sınmadı, öz ləyaqətini qorudu, milli ruhunu qorudu, Azərbaycan ruhunu qorudu", - deməklə bu tarixi şəhərin məğrurluğunu, müqəddəsliyini ifadə etmiş oldu.

***Nəzakət ƏLƏDDİNQIZI***

# Qəribə və donmuş münaqişə

***Hindistan Hərbi Hava Qüvvələrinin "Sindoor" əməliyyatı çərçivəsində Pakistan və Pakistanın nəzarətində olan Kəşmirdə doqquz hədəfi vurduğu və Pakistanın beş hind qırıcısını vurduğunu bildirdiyi Hindistan və Pakistan arasında yeni qarşıdurma hələ bitməyib. Görünən budur ki, qarşıdurma özünün pik həddinə çatmayıb. Kəşmirdə nəzarət xəttində davam edən atışmalara və Hindistanın Pakistanla həmsərhəd olan şimal bölgələrindəki 20-dən çox hava limanında əməliyyatların mayın 10-dək dayandırılmasına baxmayaraq, münaqişənin qaynar mərhələsinin başa çatması yaxın gələcəyin məsələsidir.***






Bölünmüş Kəşmirin Hindistan hissəsindəki Pahalqam şəhərində aprelin 22-də törədilən terror aktından sonra müharibə təhlükəsi hər kəsi narahat etməkdədir. Pakistan hakimiyyəti mülki aviasiya uçuşlarına qoyulan məhdudiyyətlərin əksəriyyətini artıq ləğv edib və iki ölkənin milli təhlükəsizlik müşavirləri hətta telefonla danışıblar və görünür, nəzarətsiz eskalasiyanın qarşısını almağa razılaşıblar. Hər iki tərəf Hindistanın bir günlük "Sindoor" əməliyyatı ilə yekunlaşan bir sıra siyasi və diplomatik demarşlardan sonra böyük bir müharibəyə girmək niyyətində olmadığını açıq şəkildə bildirdi.

Bəs o zaman bu nə idi, bu uğursuz müharibədən hansı nəticələr çıxarmaq olar, məsələnin bütün tərəflər üçün qiyməti nə qədərdir və dünyanın doğru yola getdiyini söyləmək olarmı? Birinci nəticə ondan ibarətdir ki, Hindistan və Pakistan arasında keçmiş Britaniya müstəmləkəsinin iki müstəqil dövlətə bölünməsindən sonra yaranan dondurulmuş münaqişə hələ də "BMT gündəliyindəki ən qədim münaqişə" olaraq qalmaqdadır. Qədim zamanlarda yazılmış, "o mənim müdafiəmi - köhnə hindimi - bir anda məhv edir - bu, mənə Hind-Pakistan hadisəsini qeyri-müəyyən şəkildə xatırladır" sözlərini ehtiva edən ölməz mahnısı bu münaqişəni anlamağa və onun həlli yollarını axtarmağa çalışan siyasətçilərin, diplomatların, ekspertlərin və jurnalistlərin gələcək nəsilləri üçün aktual olaraq qalacaq.

Nəzərə alsaq ki, bu donmuş münaqişə öz əvvəlki daimi Hind-Pakistan soyuq müharibəsi vəziyyətinə qayıtmazdan əvvəl vaxtaşırı əriyəcək, daha doğrusu partlayacaq, onu qiymətləndirməkdə yanlış yoldan getməyi dayandırmaq, hər dəfə belə hadisələr baş verəndə ortaya çıxan stereotiplərdən yaxa qurtarmaq lazımdır. Beləliklə, bütün bunlar ingilislərin ən böyük koloniyasını itirərək yeddi onillikdən artıqdır ki, eyni çirkli işləri görməyə davam etməsidir. Bu keçmiş Britaniya müstəmləkəsində hələ də haradasa görünməli olan dəhşətli "Britaniya izi" ilə bağlı versiyadır. Yeni faktlar yoxdur və "bütün işlərin ekspertləri" müstəmləkəçilərin "parçala və hökm sür" prinsipini təsvir edən tarix dərsliklərini düşünərək yenidən izah etməyə başlayıblar.

Bununla belə, əsas stereotip nüvə müharibəsi təhlükəsi ideyasıdır ki, bu, dəfələrlə iki ölkənin arsenalında olan döyüş başlıqlarının və raket daşıyıcılarının sayının hesablanması, hər cür "əzici" zərbələrin və onların nəticələrinin xəritələrinin çəkilməsi və digər apokaliptik ssenarilərin yaradılması ilə müşayiət olunur.

Həqiqətən, Hindistan və Pakistan Cənubi Asiyada iki nüvə dövlətidir, onlar üçün müstəqilliklərinin başlanğıcında öz nüvə silahlarının yaradılması ideya həllinə çevrildi, tərəflər nəyin bahasına olursa olsun, ilkin olaraq çox məhdud resurslara malik olan iki milli təhlükəsizlik strategiyasının əsas məqsədinə nail olmağa hazırdılar. Və eyni zamanda nüvə silahının yayılmaması rejimini pozduqlarına görə sanksiyalardan qorxmurlar. Müstəqil Pakistanın ilk lideri Zülfikar Əli Bhuttonun bir dəfə məşhur ifadəsini deməsi əbəs deyildi ki, "xalq yarpaq və ot yeyəcək, amma atom bombası olacaq".

Bununla belə, 1970-ci illərdən Hindistan və Pakistan nüvə silahlarını heç də ondan bir gün istifadə etmək niyyəti ilə deyil, nüvə silahından çəkindirmənin klassik doktrinası çərçivəsində onların istifadə təhlükəsinin bədnam "terror balansını" saxlaması üçün inkişaf etdirirlər. Ümumiyyətlə, hər bir tərəf düşmənin onu tamamilə məhv etməyə gücü çatmayacağına dair dəmirli zəmanətlərə sahib olmaq istəyirdi, baxmayaraq ki, bunu çox istəsə də. Bununla belə, Cənubi Asiyada nüvə müharibəsi ehtimalı çox az olsa da, bu o demək deyil ki, Hindistan və Pakistan arasındakı münaqişə uzun illər və onilliklər ərzində regional və qlobal siyasətdə ciddi sabitliyi pozan faktor olmaqdan çıxacaq.

Onun Asiyada və ondan uzaqlarda vəziyyəti zəhərləməkdə davam edəcəyi qənaətinə gəlmək üçün kifayət qədər əsas var. O, silahlanma yarışını qızışdıracaq, Pahalqamda hindistanlı turistlərin güllələnməsi kimi getdikcə daha çox terror aktlarını proqramlaşdıracaq, Hindistan və Pakistanın tamhüquqlu üzv olduğu Şanxay Əməkdaşlıq Təşkilatının işini, eləcə də Qlobal Cənub dövlətləri arasında qarşılıqlı fəaliyyət üçün digər çoxtərəfli mexanizmləri çətinləşdirəcək.

Nəhayət, münaqişə bu və ya digər tərəfi açıq və ya gizli şəkildə dəstəkləyə bilən digər regional və qlobal oyunçuların ona cəlb edilməsi ilə onun sürətlə beynəlmiləlləşməsi təhlükəsi yaradacaq. O halda bu, dolayı yolla da olsa, artıq qlobal münaqişə olacaq. Bu münaqişənin həll olunmaz görünməsinin səbəbi nədir, niyə hər iki tərəf israr edir?

Kəşmir sadəcə ərazi mübahisəsi deyil, problem daha dərinə gedir. Söhbət yalnız ərazi məsələsi olsaydı, hər şey başqa cür ola bilərdi. Amma məsələ iki barışmaz dövlət ideologiyasındadır. Məhz ideologiya həmişə bu qarşıdurmada payı qaldırır, hər iki tərəfin öz prinsiplərinə güzəştə getməsinin qarşısını alır. Hindistan "Kəşmirin təhlükəsiz və öz inkişaf strategiyası ilə tam hüquqlu bir regiona çevrilməsini təmin etmək" bəhanəsi ilə əlindəki resurslardan maksimum istifadə edir, Pakistana meylli yerli müsəlmanlar isə əksinə, onun ayrılması uğrunda mübarizəni dəstəkləyirlər.

Hindistanın "bir millət" anlayışına Pakistanın "iki millət" anlayışı qarşı çıxır. Yeni Hindistanın ataları Cavaharlal Nehru və Mahatma Qandi hindular idi, lakin onlar ölkənin təkcə əhalinin əksəriyyətini təşkil edən hinduların deyil, digər xalqların, dinlərin və mədəniyyətlərin nümayəndələrinin də ləyaqət yeri olmasını istəyirdilər. Nehru və Qandinin Hindistanın olmasını nəzərdə tutduqları "bir millət" və ya "bir xoşbəxt millətlər ailəsi" nəzəriyyəsinin əsas ideyası budur. Lakin Pakistanın qurucusu Məhəmməd Əli Cinna bunu başqa cür təsəvvür edirdi və Nehru-Qandi konsepsiyasının əsassız və prinsipcə həyata keçirilə bilməyəcəyini müdafiə edirdi. O, inanırdı ki, hindular və müsəlmanlar arasında onların birlikdə xoşbəxt yaşamasına heç vaxt imkan verməyəcək aşılmaz bir fərq var.

Cinnah əmin idi ki, müsəlmanlar Hindistanda qalmaqla qaçılmaz olaraq özlərini əzablara məhkum edəcəklər və onlar yalnız öz İslam dövlətlərində bərabər hüquqlar əldə edə biləcəklər. Beləliklə, "iki millət" - hindu və müsəlman nəzəriyyəsi yarandı və "paklar dövləti" - Pakistan yarandı. 1947-ci ilin avqustunda Hindistan və Pakistan müstəqillik əldə etdikdən qısa müddət sonra hər iki ölkədə qırğınlar baş verdi, 1 milyon insan həlak oldu və daha 17 milyon insan didərgin düşdü.

Cinnahın konsepsiyası o deməkdir ki, milyonlarla hind müsəlmanı bu gün də "yanlış ölkədə" yaşayır. Eyni nəzəriyyə Pakistanın Hindistanda müsəlmanların çoxluq təşkil etdiyi yeganə bölgə olan Cammu və Kəşmirə ilkin iddialarını izah edir. Cinnahın siyasi varisləri uzunmüddətli strategiyalarında ümid edirlər ki, bir gün hind müsəlmanları beşinci kolon rolunu oynayacaqlar - hindularla münaqişəyə girərək Hindistanı içəridən partladacaqlar. Ümumiyyətlə, bəzi qüvvələr Kəşmirin fitilini vaxtaşırı yandırmaqla, bununla da yarımçıq qalmış tarixi mübahisəni davam etdirir və bir gün dünyəvi xalqların "vahid ailəsi" ideyasını dəfn etməyə ümid edir.

Öz növbəsində Hindistan Pakistanı süni bir qurum, qüsurlu ideologiyaya malik "uğursuz dövlət" hesab edir ki, bu da qlobal terrorizmin beşiklərindən biridir və prinsipcə mövcud olmamalıdır. Ümumiyyətlə, Pakistan Hindistan, Hindistan isə Pakistan əleyhinədir. Hindistan və Pakistan hər ikisini məhv edəcək nüvə münaqişəsi riski yerinə yetirmək əvəzinə, bir gün öz rəqibini başqa bir şəkildə məhv etmək üçün nəzərdə tutulmuş yarımçıq mübahisələrini davam etdirirlər. Məhz, yaxınlıqda yerləşən düşmən dövlət qurumunun dağılmasına nail olmaq. Asiyanın həll olunmamış dondurulmuş münaqişəsi belə görünür. Qəribə və donmuş münaqişə.

**V.VƏLİYEV**

# Diş və dişsizlik: implant çarədirmi?





***İmplant, ağızda əskik olan dişlərin yerinə titandan hazırlanmış süni köklərin çənə sümüyünə yerləşdirilməsi prosesidir. Bu süni diş kökləri onun üzərində bərqərar olacaq protez dişi çənəyə birləşdirir. Əskik dişlər çeynəmə funksiyasında iştirak edə bilmədiyi üçün orqanizm bundan zərər görür, bu digər dişlərə zərər verə, mənə sümüyünün ərimasinə səbəb ola bilər. İmplant dişlər protezə ehtiyac duyulmayan vəziyyətlərdə əskik dişlərin bərpası üçün istifadə edilən variantdır.***

İmplant hər insana tətbiq edilmir, əvvəlcə insanın ağız və çənə quruluşunun implant müalicəsi üçün uyğun olub olmadığı qiymətləndirilməlidir. Çənə sümüyü kifayət qədər qalın və möhkəm deyilsə, implantın çənəyə tətbiqi üçün dəstək sümük transplantasiyası lazım ola bilər. İmplant steril bir mühitdə çənəyə yerləşdirilir və onun sümüklə kontakt prosesinin normal getməsi üçün sağalma prosesi gözlənilir. Bu proses insanın sümük quruluşundan, immun sistemindən, çənə quruluşundan asılı olaraq orta hesabla 2-6 ay çəkə bilər. Bundan sonra implantın üzərinə protez diş qoyularaq müalicə bitirilir. Bu proses zamanı xəstələrin diş həkimi ilə mütəmadi təmasda olması və gigiyena qaydalarına fikir verməsi şərtdir.

İmplant müalicəsi dövrü çox həssas dövrdür. İmplantdan sonra orqanizm ciddi allergik reaksiya da verə bilər ki, bunlara qızartı, ağrı, şişlik, göyərmə kimi əlamətlər daxildir. Bəzi hallarda implant tətbiqindən sonra iltihablanma olur ki, bu halda implantın çıxması şərt olur. Diş implantının tətbiqi zamanı və ya sonradan müxtəlif cərrahi ağırlaşmalar baş verə bilər. Bunlara həddindən artıq qanaxma, tikişlərin boşalması, yaraların sağalma müddətinin ləngliyi və ətrafdakı toxumaların zədələnməsi daxildir.





Tətbiq edildikdən sonrakı bir neçə gündə əməliyyat yerinin mühavizə edilməsi, sterilliyinin qorunması çox vacibdir. Sərt və isti yeməklərdən qaçınılmalı, implant yeri zədə almamalıdır. Sağalma prosesində ağız boşluğunun gigiyenasına xüsusi diqqət yetirilməlidir, müntəzəm diş fırçalama ilə yanaşı, həkimin tövsiyə etdiyi antiseptik ağız qarqaralarından istifadə edilməlidir. Siqaret və spirt istehlakı implantın sümüklə birləşmə qabiliyyətinə mənfi təsir göstərə bilər, buna görə də sağalma dövründə onlardan uzaq durmaq lazımdır. Bundan əlavə, implantın uzun ömürlü olması üçün müntəzəm olaraq diş həkimi müayinələri də aparılmalıdır. Ümumiyyətlə, implantlara təbii dişlər kimi həssaslıqla qulluq edilməlidir.

İmplantlar düzgün tətbiq edildikdə və düzgün qulluq edildikdə uzun illər, hətta ömür boyu ağızda qala bilər. Bununla belə, implantların ömrü xəstənin ağız gigiyenasına diqqətindən, siqaret və spirt istehlakından, diş daşlarının intensivliyindən, mütəmadi olaraq həkim müayinəsindən asılıdır. Diş əti xəstəliyi və ya osteoporoz kimi vəziyyətlər implantın davamlılığına təsir göstərə bilər.

Bu gün implant tətbiqindən daha çox ”Hollivud gülüşü” adlandırılan diş tətbiqi məşhurdur. Bu diş müalicəsi dişlərinin forması, rəngi və ya düzülüşü baxımından estetik problemləri olan insanlar üçün uyğundur, lakin günümüzdə əksər insan öz təbii dişlərini yondurub süni diş qapaqları ilə ”Hollivud gülüşü” yaratmaq ehtiyacı duyur. Lakin bu diş tətbiqi insanların istəyinə görə yox, diş həkiminin qərarına görə həyata keçirilməlidir. ”Hollivud gülüşü” müalicəsi adətən sirkonium materialından istifadə etməklə həyata keçirilir. Birinci mərhələdə xəstənin diş quruluşu ətraflı şəkildə araşdırılır və üz estetikasına uyğun dizayn hazırlanır. Dişlərin vəziyyəti uyğun olarsa, dişlərə minimal aşınma ilə qapaq tətbiq oluna bilər.

Doğrudur, estetik görünüşlü diş hər kəsin arzusudur, lakin sağlam dişləri lazımsız yerə aşındırmaq düzgün yanaşma deyil. Qapaq prosedurları dişin mina toxumasına müdaxilə tələb etdiyi üçün hər adam üçün uyğun olmaya bilər. Estetik görünməsə belə çox sağlam dişləri olan insanlar var ki qapaq proseduru üçün dişlərini yondurur.

Diş itkisinin qarşısını almaq üçün müntəzəm ağız gigiyenasına riayət edilməlidir. Bundan əlavə, sağlam qidalanma diş sağlamlığı üçün əhəmiyyətli amildir. Həddindən artıq şəkərli və turşulu qidalardan uzaq durmaq diş çürüməsinin qarşısını alır. İmplant dişi olan adamlara süd və süd məhsullarını az istehlak etmək məsləhət görülür, çünki süd məhsulları yüksək miqdarda laktik turşu ehtiva edir. Laktik turşu ağız florasında olan bakteriyalar üçün uyğun bir çoxalma zəmini təmin edir. İmplant əməliyyatından sonra yaranan yara sahəsi bakteriyalara qarşı həssasdır. Buna görə də, süd məhsullarının istifadəsi infeksiya riskini artıra bilər. Siqaret və spirt istehlakının azaldılması diş əti xəstəliklərinin qarşısını almaqda faydalıdır. Diş qıxama, sıxma kimi zərərli vərdişlər də diş itkisinə səbəb ola bilər.

***Lalə Mehralı***



*QURUM RƏSMİSİ DANIŞDI*

# Qızılın qiyməti rekord həddə yaxınlaşır!



”Son günlər ərzində qlobal əmtəə bazarlarında qızılın qiymətində ardıcıl artım tendensiyası müşahidə olunur. Bu artım, xüsusilə dünyadakı geosiyasi qeyri-müəyyənliklər, dünya iqtisadiyyatında tənəzzül təhlükəsi və mərkəzi bankların qızıl ehtiyatlarına tələbinin rekord həcmdə artması ilə izah olunur”. Bu sözləri SİA-ya açıqlamasında Zərgərlər Assosiasiyanın İdarə heyətinin sədrinin müavini Rövşən Əmircanov deyib. Onun sözlərinə görə, hazırda London Əmtəə Birjasında (LBMA) qızılın bir unsiyasının qiyməti 3,380-3,400 ABŞ dolları aralığında dəyişir ki, bu da tarixi maksimuma yaxın səviyyə hesab olunur: ”Bu göstəricilər fonunda müxtəlif əyar dərəcələrinə malik qızıl məmulatlarının qramla satış qiymətləri təxmini olaraq aşağıdakı kimidir:

* 999.9 əyarlı qızılın 1 qramı təxminən 109 ABŞ dolları və ya 185 manat,
* 750 əyarlı qızılın 1 qramı 82 ABŞ dolları və ya 139 manat,
* 585 əyarlı qızılın 1 qramı isə 64 ABŞ dolları və ya 108 manat civarındadır.

Ümumilikdə, qızılın qiymətində müşahidə olunan artım tendensiyasının yaxın gələcəkdə də davam edəcəyi proqnozlaşdırılır. Bu isə həm investorların risklərdən sığortalanma məqsədilə investisiya aləti kimi qızıla olan yüksək tələbatından, həm də geosiyasi və makroiqtisadi amillərin təsirindən qaynaqlanır. Belə şəraitdə qızıl yalnız zinət əşyası deyil, həm də dayanıqlı investisiya aləti kimi aktuallığını qoruyur”.

R. Əmircanov qeyd edir ki, qızılın qiymət dinamikasına təsir edən əsas faktorlar sırasında qlobal inflyasiya, ticarət münasibətlərindəki gərginliklər, geosiyasi risklər və mərkəzi bankların qızıl ehtiyatlarına tələbinin rekord həcmdə artması xüsusi yer tutur: ”Bu amillər qızılın həm təhlükəsiz investisiya vasitəsi, həm də strateji ehtiyat kimi əhəmiyyətini artırır. Bütün bu faktorlar qızılı təkcə zinət əşyası deyil, eyni zamanda strateji ehtiyat və investisiya aləti kimi aktuallaşdırır. Hazırkı geosiyasi qeyri-müəyyənlik fonunda qızılın bir unsiyasının 3,500 ABŞ dolları həddini keçəcəyi ilə bağlı proqnozlar mövcuddur. Bu isə investorların diqqətini etibarlı investisiya aləti kimi daha çox bu metala yönəldir.

## Dünya bazarında qızılın bahalaşması Azərbaycana necə təsir göstərir?

Azərbaycanın qiymətli metallar bazarında da qlobal qiymət tendensiyaları öz əksini tapmaqdadır. Xüsusilə son aylarda yerli bazarda qızıl məmulatlarının satış qiymətlərində nəzərəçarpacaq artım müşahidə olunur. Bu bahalaşma dünya birjalarındakı dinamikanın təsiri ilə yanaşı, daxildə tələbin artması və idxal olunan məhsulların maya dəyərinin yüksəlməsi ilə də bağlıdır. Ən çox təsir isə pərakəndə satış seqmentində hiss olunur. Bu seqmentdəki qiymət dəyişiklikləri həm qızılın beynəlxalq birjalardakı qiyməti üzrə dalğalanmalarla, həm də yerli iqtisadi və ticarət şərtlərinin dəyişməsi ilə birbaşa əlaqəlidir. Xüsusilə xarici valyuta kurslarındakı dəyişikliklər, nəqliyyat və logistika xərclərinin artması, satış qiymətlərinə birbaşa təsir göstərir.

Beləliklə, qızılın qiymətindəki artım təkcə qlobal təsirlərlə deyil, həm də regional və lokal faktorlarla formalaşır. Mövcud geosiyasi risklər və iqtisadi qeyri-sabitlik fonunda Azərbaycanda da qızıl təkcə zinət əşyası deyil, həm də etibarlı sərvət və strateji investisiya vasitəsi kimi əhəmiyyətini artırır. Azərbaycanda isə bu proses sadəcə qiymət artımı ilə məhdudlaşmır - bazarda struktur dəyişiklikləri, ticarət strategiyalarının yenilənməsi və istehlakçı davranışlarında adaptasiya meylləri də müşahidə olunur.

***Xeyrənsə Piriyeva***

# Bakı nefti olmasaydı...

*İkinci Dünya müharibəsində faşizm üzərində qələbədən 80 il ötür*

9 may - alman faşizmi üzərində qələbə tarixidir. Həmin tarixdən düz 80 il ötür. Qafqazdan Berlinədək şanlı döyüş yolu keçmiş azərbaycanlıların qəhrəmanlığı, şücaəti yaddaşlarda həmişə yaşayır. Qürurlanırıq ki, minlərlə vətən oğlunun İkinci Dünya müharibəsindəki qəhrəmanlığı müxtəlif xalqlar tərəfindən öyrənilir və xalqımıza məxsus ərənlik bir nümunəyə çevrilib. Müharibə zamanı göstərdikləri igidliyə görə 130-dan çox Azərbaycan vətəndaşının Sovet İttifaqı Qəhrəmanı adına layiq görülməsi əlbəttə ki, bu savaşda Azərbaycan oğullarının rolunun böyük və əvəzsiz olduğunu göstərməklə yanaşı, igidliyindən də söz açır. Müharibədə Azərbaycanın müsəlləh əsgərləri silaha sarılaraq alman faşistləri ilə üz-üzə dayandılar. Gərgin bir döyüş yolu keçdilər. Müharibə başlanandan keçən qısa müddət ərzində, Azərbaycan ərazisində 87 qırıcı batalyon, 1124 özünümüdafiə dəstəsi təşkil edildi, respublikanın 700 mindən çox oğlan və qızları cəbhəyə yola salındı. Onların təxminən yarısı döyüş meydanlarında həyatlarını itirdilər. 170 mindən çox əsgər və zabitimiz isə müxtəlif orden və medallarla təltif edilib.




## BRANDENBURQ DARVAZALARI ÜZƏRİNƏ



## QƏLƏBƏ BAYRAĞINI SANCAN AZƏRBAYCANLILAR

Azərbaycanlı çağırışçı və könüllülərdən formalaşdırılan 77-ci, 223-cü, 336-cı, 402-ci və 416-cı milli atıcı diviziyaları Qafqazdan Berlinədək şanlı döyüş yolu keçdi. Xalqımızın qəhrəman övladları Moskva, Leninqrad, Kiyev, Stalinqrad, Simferopol, Odessa və digər şəhərlərin düşməndən azad edilməsində rəşadət göstərmiş oldular. Həmyerlilərimiz Polşa, Çexoslovakiya, Yuqoslaviya və digər ölkələrin azad olunmasında da yaxından iştirak etdilər. Xatırladaq ki, Berlinə ilk dəfə daxil olan hərbi hissələr içərisində 416-cı diviziyası da var idi. Azərbaycan Prezidenti İlham Əliyev müsahibələrinin birində qeyd edib ki, 416-cı diviziya Berlinin götürülməsində də fərqlənib: "Kayzer Vilhelm sarayını məhz bu diviziyanın döyüşçüləri tutublar. Azərbaycanlı leytenant Məcidovun rəhbərlik etdiyi bir qrup döyüşçü isə Brandenburq darvazaları üzərinə Qələbə bayrağını sancıb". Berlin uğrunda döyüşlərdə kapitan X.Gülməmmədovun batalyonu xüsusilə fərqlənib. Kayzerin sarayı üstündə Qələbə bayrağını ilk dəfə mayın 1-də sancanlardan biri leytenant Vahab Osmanov düşmən gülləsindən həlak olub. Brandenburq qapıları üstünə mayın 2-də qələbə bayrağını taxanlardan biri isə leytenant A.Məcidov və onun döyüşçüləri olublar.

## NEFTİN 70 FAİZİNDƏN ÇOXU, BENZİNİN 80 FAİZİ, MOTOR YAĞLARININ İSƏ 90 FAİZİ AZƏRBAYCANIN PAYINA DÜŞÜRDÜ



Bu tarixi qələbədə Azərbaycanın, onun övladlarının və neftinin əhəmiyyəti böyükdür. İkinci Dünya müharibəsində qələbənin qazanılmasında Bakı nefti əvəzsiz rol oynamışdır. 1941-1945-ci illər müharibəsi zamanı Sovet İttifaqının istifadə etdiyi neftin 70 faizindən çoxu, benzinin 80 faizi, motor yağlarının isə 90 faizi Azərbaycanın payına düşürdü. Azərbaycan Berlinin alınması zamanı Almaniya səmasında uçuşlar həyata keçirən 7 min hərbi təyyarənin yanacaq təchizatında da mühüm rol oynadı. Xalqımız cəbhəyə 7 tondan çox donor qanı göndərərək, döyüşən ordunun ərzaq və isti geyimlə təchizatında fəallıq göstərdi. 1941-1945-ci illərin alovunu Azərbaycanın hər bir vətəndaşı yaşıyıb. Müharibə illərində Azərbaycanın bütün iqtisadiyyatı da müharibə tələblərinə uyğun qurulmuşdu. Fəhlə və qulluqçular üçün iş günü 11-12 saata qaldırılmışdı. Məzuniyyətlər ləğv olunmuşdu. Ərzaq, gündəlik tələbat və çox işlənən sənaye məhsullarının satışı üzrə kartoçka sistemi tətbiq edilmişdi. Orduya səfərbər edilmiş işçilərin yerinə qadınlar və yeniyetmələr cəlb olunmuşdu. Bütün sənaye sahələri cəbhə üçün məhsul istehsal etməyə başlamışdılar. Azərbaycan hərbi əməliyyat meydanına çevrilməsə də, müharibənin əvvəlindən axırınadək, bu meydanda fəal iştirak etdi. Bakıda - indiki Səttərxan adına zavodda müharibə üçün silah-susat istehsal olunurdu. "Katyuşa" raketi, "Şpakin pulemyotu", "YAK-3" qırıcı təyyarəsi yığılırdı. Bütün qüvvələr faşizm üzərində qələbəyə yönəldilmişdi.

## "FAŞİZMİ QƏHRƏMANLAŞDIRMAQ OLMAZ"

Prezident İlham Əliyevin çıxışlarının birində söylədiyi fikirlərini xatırlatmaq yerinə düşərdi: "İkinci Dünya müharibəsinin tarixi ilə bağlı təhrifetmə cəhdlərinə son qoyulmalıdır. Bu siyasət dünyanı uçuruma aparacaq. Faşizmi qəhrəmanlaşdırmaq olmaz. Amma bir tərəfdən Ermənistan rəsmən bu fikirlərə qoşulsa da, faktiki olaraq Njde kimi faşistin qəhrəmanlaşdırılması ilə bağlı konkret addımlar atır".

Faşizmi qəhrəmanlaşdırmağın yolverilməz olduğunu qeyd edən dövlətimizin başçısı deyib: "Bu günə qədər Ermənistanda, İrəvanda faşist Njdenin adını daşıyan küçələr, meydanlar, metro stansiyası var, ona böyük - altımetrlik abidə qoyulub. Bu abidə bu günə qədər sökülməyib. Yəni, bu, nəyi göstərir? Onu göstərir ki, erməni faşizmi yaşayır. Bəli, İkinci Qarabağ müharibəsində, Vətən müharibəsində biz erməni faşizmini məğlub etmişik".

Azərbaycanda hazırda İkinci Dünya müharibəsi veteranları yaşayır. 9 may-faşizm üzərində qələbədən 80 il ötsə də, həmin illərin ağrısını-acısını yaşayan insanlar hələ də var, müharibənin canlı şahidləri. Həmin illərdə baş verən hadisələrin, müharibənin şahidi və iştirakçısı olan insanların qələbə istəyi ilə Berlinə qədər getmələri, fədakarlıqları və ərənlikləri yaddaşlardan, tariximizdən heç vaxt silinməyəcək.

## YADDAŞLARDA YAŞAYAN QƏHRƏMANLIQ

Müharibədə od-alov püskürən cəbhələrdə ölümlə üz-üzə dayanan, qəhrəmanlıq göstərən insanlara və müharibə veteranlarına Azərbaycanda böyük diqqət və qayğı göstərilir. Veteranlara ikinci həyatı isə öz diqqət və qayğısı ilə Ulu Öndər Heydər Əliyev bəxş etmişdir. Ümummilli Lider Heydər Əliyev hakimiyyətdə olduğu bütün dövrlərdə müharibə veteranlarının problemlərinə xüsusi diqqət yetirmiş və onlara hərtərəfli qayğı ilə yanaşmışdır. Müstəqilliyin ilk illərində veteranlara ədalətsiz münasibət heç kimin yadından çıxmayıb, AXC-Müsavat iqtidarı dövründə, hətta 9 May Qələbə Gününü də ləğv etmək fikrində idilər. Ulu Öndər Heydər Əliyev 1993-cü ildə Azərbaycanda hakimiyyətə qayıdışından sonra bu ədalətsiz münasibət aradan götürüldü, ədalət bərpa olundu və veteranlara layiq olduqları hörmət göstərilməyə başlandı. "Tarix bu gün də bilməlidir ki, İkinci Dünya müharibəsində Azərbaycan Respublikasının xidməti, fəaliyyəti, rolu çox böyük olmuşdur", - deyən Dahi Öndər Heydər Əliyev müharibə veteranlarını "Xalqımızın Qızıl Fondu" adlandırırdı.

Ölkəmizdə müharibə veteranlarına qayğının və onların sosial müdafiəsinin gücləndirilməsi dövlət siyasətinin əsas istiqamətlərindən biridir. Ulu Öndər Heydər Əliyevin bu sahədəki siyasətini uğurla davam etdirən Prezident İlham Əliyev İkinci Dünya müharibəsinin ağır və çətin sınaqlarından keçmiş veteranların qayğılarına həssaslıqla yanaşır. "Biz ümumi Qələbəmiz uğrunda canlarından keçənlərin müqəddəs xatirəsini ehtiramla yad edirik", - deyən dövlət başçısı Azərbaycanda veteranların diqqət və qayğı ilə əhatə olunduğunu bildirib.

## QƏLƏBƏNİN 80-Cİ İLDÖNÜMÜ İLƏ ƏLAQƏDAR MÜHARİBƏNİN İŞTİRAKÇILARINA 2500 MANAT BİRDƏFƏLİK MADDİ YARDIM ÖDƏNİLİB

Prezident İlham Əliyevin yeni "1941-1945-ci illərdə İkinci Dünya müharibəsində iştirak etmiş şəxslərə, həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə birdəfəlik maddi yardım verilməsi haqqında" Sərəncamı bu kateqoriyadan olan vətəndaşların daim yüksək diqqət və qayğı ilə əhatə olunduqlarını bir daha təsdiq edir. Sərəncama əsasən, İkinci Dünya müharibəsində Qələbənin 80-ci ildönümü ilə əlaqədar həmin müharibənin iştirakçılarına 2500 manat birdəfəlik maddi yardım ödənilib. İkinci Dünya müharibəsində həlak olmuş və ya sonralar vəfat etmiş döyüşçülərin dul arvadlarına, həmin dövrdə arxa cəbhədə fədakar əməyinə görə orden və medallarla təltif edilmiş şəxslərə, İkinci Dünya müharibəsi illərində döyüş cəbhələrinin arxa hüdudları, yaxud döyüşən donanmaların əməliyyat zonaları daxilində ordunun və donanmanın mənafeyi üçün tapşırıqları yerinə yetirmiş xüsusi birləşmələrin işçilərinə, İkinci Dünya müharibəsi dövründə Leninqrad şəhərinin müdafiəsinə görə müvafiq medal və döş nişanı ilə təltif edilmiş şəxslərə, habelə Leninqrad şəhərinin mühasirəsi iştirakçılarına 1250 manat məbləğində birdəfəlik maddi yardım verilib. Sərəncam ümumilikdə 2469 şəxsə şamil olunub. Onlardan 21-i İkinci Dünya müharibəsi iştirakçılarıdır. Birdəfəlik maddi yardımların verilməsi üçün Sərəncamla Azərbaycan Respublikasının 2025-ci il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan 3,2 milyon manat vəsait ayrılıb.

Prezident İlham Əliyevin imzaladığı Sərəncam Azərbaycanın dövlət siyasətinin insan amilinə söykənməsi və humanist mahiyyət kəsb etməsinin növbəti təzahürüdür.

**Zümrüd BAYRAMOVA**

# Sosial şəbəkələr xəbər verir, ya xəbərçilik edir?

## Əslsiz xəbərlər, təsdiqsiz məlumatlar, şayiələr və qarayaxmalar fonunda inkişaf edən sosial şəbəkə xəbərçiliyi peşəkar jurnalistikanın önünü kəsir

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə "fikir, söz və məlumat azadlığının, plüralizmin inkişaf etdirilməsi "istiqaməti çərçivəsində hazırlanıb*








"Smart Insights"in məlumatlarına görə, hazırda dünyada 4,62 milyard sosial şəbəkə istifadəçisi var, aktiv internet istifadəçisinin sayı isə 5 milyarda yaxınlaşıb. İstifadəçilərin sayı artdıqca insanların sosial şəbəkələrdə keçirdikləri vaxt da artır. Hesabata görə, insanlar gündə təxminən 2,5 saatını sosial platformalarda keçirirlər. Sosial şəbəkələrdən istifadənin sürətlə artması ilə paralel sistemin özü də yeni tendensiyalarla durmadan təkamül edir və dəyişir. Dəyişiklik üzvlərdə də hiss olunur. İndi hər sosial şəbəkə istifadəçisi əlinə bir kamera, telefon alıb öz kanalı üçün material hazırlayır, gördüyünü çəkir. Onların arasında gördüyünü doğru şərh edib normal məlumatlandırma edənlər də var, məsələnin əslindən xəbərsiz olub inananları yanlış yönləndirən də.

### Hər kəs düşündüyünü yazmaqda sərbəstdir, bəs şayiə yaysa necə?

Hər kəsin öz fikir və mülahizələrini söz, yazı, şəkil və ya digər vasitələrlə ifadə etmək və yaymaq hüququ var. İnsan fikrinə və düşüncəsinə müdaxilə mümkünsüzdür. Söz azadlığı və düşüncənin sərbəst ifadə edilməsi, problemsiz yayılması cəmiyyət üçün son dərəcə vacibdir. Fikir və söz azadlığı özlüyündə bir məqsəddir, fiziki və mənəvi azadlıq demokratik həyat tərzinin vacib elementidir. Hər hansı bir ölkənin daxili qanunvericiliyində söz, düşüncə və mətbuat azadlığının kifayət qədər təmin edilməyəcəyi düşünülərək, bu azadlıqlar beynəlxalq hüquq nörmalarına da daxil edilib, beynəlxalq müqavilələrin predmeti kimi qəbul edilir.

Demokratik hüquqi dövlətdə söz azadlığının əhəmiyyəti danılmazdır və ona görə də söz və düşüncə azadlığının məhdudlaşdırılması məsələsinə həssaslıqla yanaşılmalıdır. Çünki söz azadlığını məhdudlaşdırmaq dolayısı ilə bir çox başqa azadlıqları məhdudlaşdırmaq deməkdir. Lakin hər məlumatı "söz azadlığım var" deyə yaymaq da olmaz. Bu səbəbdən, ifadə azadlığının da sərhədləri olduğu qəbul edilməli və bu məhdudiyyətlər qanun çərçivəsində təyin edilməlidir.

Əslində, ifadə azadlığı demokratik cəmiyyətin əsas xüsusiyyətlərindən biri olsa da, bu azadlığı "vətəndaşın öyrənmək istədiyi hər şeyi bilmək hüququ var" kimi şərh etmək olmaz. İfadə azadlığının müvafiq müddəalar çərçivəsində məhdudlaşdırılması qanunla müəyyən edilməlidir. Həmçinin bu məhdudiyyət demokratik cəmiyyətin tələblərini də pozmamalıdır.

### Media və fikir azadlığı

Söz azadlığının öz sərhədlərindən uzaqlaşabilmə ehtimalına qarşı bəzi məhdudiyyətlər də mövcud olur. Dünya ölkələrinin hər birində bu məhdudiyyətlərin əhatə dairəsi və onların təyin edilməsi vasitələri ilə bağlı qanunlar var. Dünyada müxtəlif qeyri-hökumət təşkilatları ölkələrdə mətbuat azadlığının olub-olmaması ilə bağlı müxtəlif meyarlar əsasında qiymətləndirmələr aparır.

Məsələn, Sərhədsiz Reportyorlar hər il Mətbuat Azadlığı İndeksini dərc edir. Bu indeks 180 ölkədə jurnalistlər arasında keçirilən sorğu vasitəsilə plüralizm, media müstəqilliyi, media mühiti və özünüsenzura, qanunvericilik bazası, şəffaflıq, xəbər və informasiya istehsalına dəstək verən infrastrukturun keyfiyyəti meyarlarına əsasən qiymətləndirilir.

Sosial şəbəkələrdə bir fikir yüzlərlə insan tərəfindən fərqli qəbul edilə, fərqli izah edilə bilər. Birinin qara dediyinə başqası ağ deyə, fikrini əsaslandıra, sübut edə bilər. Düşüncə və fikir azaddır. 4-cü hakimiyyət hesab olunan KİV dünyada demokratiya və informasiya azadlığının mühüm atributu hesab edilir. Kiminsə şərəf-ləyaqətini alçaltmadıqca, dövləti və ictimai xadimləri təhqir etmədikcə, ictimaiyyətə zərərli fikirlər aşılamadıqca heç bir cəmiyyətdə heç kimin söz azadlığı əlindən alına bilməz.

### Sosial şəbəkədə xəbər paylaş, xəbərçilik etmə

Sosial şəbəkələr çox şeyi həm yazılı, həm görüntülü paylaşmağa imkan verən ən ideal mühitdir. Əvvəl kommunikasiya ənənəvi yollarla təmin edilirdisə, bu gün sosial media bu işdə şəriksiz liderdir. Sosial şəbəkələr ünsiyyət üsulu olaraq dözümlülüyə malikdir, sıradan çıxmır, köhnəlmir, davamlılığı itmir. İnsanlar dünyanın istənilən yerində istənilən şəxslə dostluq qura bilir. Xüsusilə məhdud fiziki imkanlara malik insanlar üçün sosial şəbəkələrin əhəmiyyəti böyükdür. Sosial şəbəkələr həm də ən böyük marketinq imkanları yaradan vasitədir, insan bu imkanlarla özünü inkişaf etdirə, istehsal etdiyi məhsulu tanıda, sata, ala bilir.

Qəzet jurnalistikasını bir addım qabaqlayan sayt, televiziya jurnalistikası öz növbəsində sosial şəbəkə xəbərçiliyinə uduzur. İndi kütləyə ən sürətli nüfuzetmə liderliyi sosial medianın əlindədir. Əgər bir sosial şəbəkə hesabın varsa, eyni zamanda, həm qəzetin, həm saytın, həm televiziyan, həm də radion var deməkdir. Hər gün yeni funksiyaları yaradılan sosial şəbəkələrin sərhədsiz inkişafı jurnalistikaya da təsirsiz ötüşmür. Günün istənilən saatı, istənilən yerdən canlı yayım edə bilmək funksiyası isə sosial şəbəkələrin liderliyini bir daha təsdiqlədi. Lakin...

Sosial şəbəkələrin yaratdığı bu media növü peşəkar jurnalistikanı sıxışdırmaqla yanaşı, qeyri-peşəkar bir media yaratmaqda israrlıdır. Əsası olub-olmadığını araşdırmadan, hay-küylə, yalançı həyəcanla, saxta oxunma sayı ilə özünü sosial şəbəkə fenomenləri adlandıran bir qisim istifadəçi peşəkar mətbuata əslində mane olur. Beləcə əslsiz, təsdiqsiz, şayiələr, qarayaxmalar fonunda inkişaf edən sosial şəbəkə xəbərçiliyi peşəkar jurnalistikanın və medianın inkişafına mane olur.

Doğrudur, sosial şəbəkələr həyatımıza olduqca rahatlıq gətirdi, həm fikrimizi çatdırmaq, həm yeni fikirlərlə tanış olmaq üçün əlverişli ünsiyyət vasitəsidir. Onun vasitəsi ilə sürətli informasiya axınına müdaxilə edə, informasiyanı istədiyimiz şəkildə manipulyasiya edə bilirik. Amma pis tərəfi də var ki, bizə özümüzü dəyişdirmək və virtual aləmdə olmaq istədiyimiz simanı yaratmaq imkanı da verir. Etiraf etmək lazımdır ki, sosial şəbəkələrin yaratdığı dəyişiklik, real həyatdan fərqli qaydalar və avatarların arxasında gizlənməyimiz gerçək "mən"imizi korlayıb. İndi biz fərqindəyik ki, informasiyanı manipulyasiya edə bilməklə yanaşı, istədiyimiz şəkildə informasiya istehsal edə və istehsal etdiyimiz məlumatlarla kütlələri idarə edə bilirik.

**Lalə Mehralı**

SƏS
9 may
2025-ci il

# “Hər bir insan gəlirinin bir hissəsini gələcək üçün ayırmalıdır”





**“XXI əsr, dünya iqtisadiyyatının sürətlə dəyişdiyi, insanların maddi tələbatlarının artdığı bir dövrə çevrilmişdir”. Bu sözləri SİA-ya açıqlamasında sosial və mənəvi məsələlər üzrə ekspert Ramal Əliyev deyib. O bildirib ki, hər bir insanın həyatında maddi imkanlar vacibdir, çünki bu imkanlar yalnız şəxsi həyatın keyfiyyətini deyil, həm də ümumi sosial rifahı təyin edir: ”İnsanın maddi tələbatları bir çox sahəni əhatə edir: ev, minik vasitələri, təhsil, sağlamlıq və sair. Lakin bu tələblər ilə insanların gəlirləri arasındakı balans bəzən ciddi problemlər yaradır. Əksər hallarda, insanın istədiyi maddi mülklərə sahib olmaq üçün çox çalışması və gəlirlərini düzgün idarə etməsi tələb olunur. Bunu həyata keçirmək üçün isə kapitalın toplanması vacib bir məsələyə çevrilir.**

Təcrübəli iqtisadiyyatçılar və biznes sahəsində fəaliyyət göstərənlər hər zaman insanlara tövsiyə edirlər ki, hər bir insan gəlirinin müəyyən bir hissəsini gələcək üçün ayırsın. Ən azı 15%-lik bir hissə kənara qoyulmalıdır. Bu yanaşma, insanların maddi sıxıntılardan qaçması və gələcəkdəki ehtiyaclarını qarşılamağa kömək edir. Kapital toplamaq, yalnız fiziki mülklərə sahib olmaqla məhdudlaşmır, eyni zamanda insanın gələcəyini təmin edən bir zəmin yaradır.

Bununla belə, bəzi insanlar həyatlarını ”dünya bir gündür, o da bu gündür” prinsipi ilə qurur və qazandıqları hər şeyi anında sərf edirlər. Onlar üçün gələcək, qeyri-müəyyən və uzaq bir anlayışdır. Lakin bu yanaşma, uzunmüddətli dövrdə maddi sıxıntılarla üzləşməyə səbəb ola bilər. Əgər insan bütün qazancını anında xərcləyirsə, gələcəkdə baş verəcək hər hansı fövqəladə hal və ya ehtiyaclar üçün hazırlıqsız olar”.

Onun sözlərinə görə, ağıllı və uzaqgörən insanlar isə həm vaxtlarını, həm də gəlirlərini düzgün tənzimləyirlər: ”Onlar gələcəyin tələblərini nəzərə alaraq hərəkət edirlər. Yalnız qısa müddətli zövqləri deyil, eyni zamanda uzunmüddətli məqsədləri də düşünürlər. Bu yanaşma nəticəsində onlar zamanla maddi müstəqillik və rifah əldə edirlər. Kapital yığmaq, yalnız bir məbləğin kənara qoyulmasından ibarət deyil, eyni zamanda insanın sağlam bir maliyyə planı qurmasına və bu plana əsasən hərəkət etməsinə kömək edir.

Gəlirindən müəyyən bir hissəni kənara qoymaqla, insan həm şəxsi maliyyə sabitliyini təmin edir, həm də həyatda qarşılaşa biləcəyi təcili hallara qarşı hazırlıqlı olur. Uzun müddətli kapital toplamaq, həmçinin bir şəxsin istədiyi maddi mülklərə sahib olmasına imkan verir. Bu, ev almaq, yeni bir iş açmaq və ya sadəcə həyat keyfiyyətini artırmaq üçün lazım olan maddi resursların təminatıdır. Əgər insan öz kapitalını idarə edə bilirsə, o zaman maddi sıxıntılarla üzləşmə ehtimalı da azalır.

Sonuç olaraq, hər bir insan gəlirinin müəyyən bir hissəsini gələcək üçün ayırmalıdır. Bu yanaşma, həyatın maddi cəhətlərini daha sağlam və sabit şəkildə idarə etməyə imkan verir.

***Söylü Ağazadə***


# “SƏS” qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Azərmətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Qasid Mətbuat Yayım – 0124931406, 0124938343
7. F.Ş.Ruhid Hüseynov – 0124349301, 0505357898
8. Ziya LTD – 0124977696, 0503067744

1 nüsxə 1 aylığı 13.20 AZN
6 aylıq 79.20 AZN
1 illik 158.40 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!


# Finalın adı: PSJ - ”İnter” olacaq!



UEFA Çempionlar Liqasında yarımfinal mərhələsinə yekun vurulub. İkinci cavab matçı ilə sonuncu yarımfinalçı da müəyyənləşib. PSJ 1 həftə əvvəl məğlub etdiyi ”Arsenal”la ”Park de Prens”də qarşılaşıb. Görüş Paris təmsilçisinin 2:1 hesablı qələbəsi ilə başa çatıb. Bununla da Luis Enrikenin komandası ümumilikdə 3:1 hesabı ilə üstün olaraq finala adlayıb. Fransa klubu mayın 31-də Münhendə keçiriləcək həlledici oyunda İtaliya ”İnter”i ilə üz-üzə gələcək.

# Bank kartlarından daha 36 min manat oğurlandı...



Mayın 7-də ayrı-ayrı vətəndaşların müxtəlif kiber üsulla 12082, 5000, 4010, 2800, 2800, 1980, 1182, 1041, 1014, 999, 900, 730, 560, 250, 140, 135, 112, 110, 100, 50, 40, 8 manat pul vəsaitləri bank kartlarından oğurlanıb. Bu barədə Daxili İşlər Nazirliyinin (DİN) mətbuat xidmətindən məlumat verilib. ”Kartın üzərindəki CVV/CVC kodu, SMS vasitəsilə göndərilən OTP kodu, digər sizə məxsus sistemlərə giriş üçün lazım olan loqin və şifrələr, kartın PİN kodu məxfi məlumatlardır. Həmin məlumatlar naməlum şəxslərə verildiyi halda hesabda olan pullar, yaxud pul yoxdursa, kredit formasında vətəndaşa zərər vura bilərlər. Bir daha vətəndaşlara şübhəli zənglərdən gələn cəlbedici qazanc, sığorta, viza işləri, bank hesablarının möhkəmləndirilməsi, mədaxil üzrə ödənişlərlə əlaqəli təkliflərə diqqətlə yanaşmağı tövsiyə edirik. Qəti formada şəxsi bank məlumatlarını naməlum şəxslərə verməyin, təhlükə var”, - deyə DİN-in məlumatında xəbərdarlıq edilib.

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**http://www.ses-news.az**
**http://www.sesqazeti.az**
**E-mail: ses@sia.az**
**“ƏLİNCƏ” AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.**
**QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR**
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

**Qəzet bazar və bazar ertəsindən başqa hər gün nəşr olunur**

**Tiraj: 3000**